SƏFA MƏCİDOV

ŞEİRLƏR VƏ DÜŞÜNCƏLƏR

1

2024

QƏZƏLLƏR VƏ ŞEİRLƏR

Məni Allah uzaqlaşdır bütün çirkin əməllərdən
Müsəlmanlar xeyir görməz, bu cür yəqin əməllərdən

Müsibətdir satıb imanı şeytana bəni-adəm
Günahlar göz qabağında keçib batin əməllərdən

Bir addım da Xudavəndə yaxınlaşmaq gər istərsən
Atıb nadanlığın daşın yapış mömin əməllərdən

Çalış hər vaxt kim olduğun əməllərlə sübut eylə
Olur bəlli bir insana xeyir, xain əməllərdən

Ziyarətlərdə, pirlərdə bütə min səcdə etməkdən
Zəkat ver kimsəsiz görsən, bu ən zəngin əməllərdən

Quru sözlə heç olmazsa yolundan çıxmış insanı
Gətir haqqın təriqətinə savab yüz min əməllərdən

Kifayətdir edib rişxənd dəyərlər ki, bu Fərzanə
Əməl saleh deyil amma deyir kəskin əməllərdən

Fərzanə- şeirlərimin bəzilərində istifadə etdiyim ləqəbdir, mənası "bilici, elimli" deməkdir.

05.10.2010

Bu sevməkdir sevilməkdir tamam billah düşüb gözdən
Bir üsyandır dəli sevda başım çəkmiş təcavüzdən

Ki, baxma sevda beş hərfdir, hər hərfi bir məlamətdir
Bu beş hərfin böyük dərdi, gəlir sadə tələffüzdən

Xuramanın mən ardınca süründüm çox dəxi indi
Dayanmaq halətim yoxdur gedibdir taqətim dizdən

Belə yanmaz idi bəlkə mənim cismim cəhənnəmdə
Bir od qoydu mənə canan kabab olmuş ürək közdən

Çalış cəhd eylə Fərzanə! gözəl sevmə cəmalından
Bu isbatdır, həqiqətdir olur peşman sevən üzdən

09.12.2012

Ölüb gedərsən axırı
Özündən olma razı gəl

Heç olmasa onundan ol
Yüzündən olma razı gəl

Ağıldı qaldıran səni
Dizindən olma razı gəl

Yalanla yat yalanla dur
Düzündən olma razı gəl

Varındı çeşmi-əhvəlin
Gözündən olma razı gəl

Qonaqların narazıdır
Mizindən olma razı gəl

Yağış yağar odun sönər
Közündən olma razı gəl

Səfa! bəyənməyən də var
Sözündən olma razı gəl

“Çeşmi-əhvəl”-həqiqəti görə bilməyən göz

10.12.2012

Allaha ibadətdədi minlərlə müsəlman
Hər ildə ziyarətdədi minlərlə müsəlman

İnsana gözəllikləri, sürətləri verdi
Təbii qazı, nefti neçə sərvətləri verdi
Allah bu qədər ruzini nemətləri verdi
Əfsus ki, şikayətdədi minlərlə müsəlman

Toqquşdu buludlar və yağışlar yerə yağdı
Bir yanda dəniz, güldüsə bir yanda bulağdı
Allah bizə bağbandı bu dünya evi bağdı
Bir güldü təravətdədi minlərlə müsəlman

Kim ömr edər Allaha təvəkkül pənahıyla
Etməzsə keçər günləri min nalə ahıyla
İnşallah uduzmaz namaz adlı silahıyla
Şeytanla rəqabətdədi minlərlə müsəlman

Kafir! Seçilirsən niyə pak qəlbli bəşərdən?
Çün sən də müsəlman yaranıbsan bu dəyərdən
Aç gözlərini diqqət ilə seyr elə hərdən
Hər yanda vilayətdədi minlərlə müsəlman

10.11.2012

Zalima bizlərə zülm etmə Xuda xatirinə
Füqəra kəslərik incitmə Xuda xatirinə

İmkanın vardı, fəqir millətinə eylə kömək
Biri satqınlıq edir o biri atır barda göbək
Qoy halal yolla edək əldə halal nanu-nəmək
Bizi pisliklərə öyrətmə Xuda xatirinə

Haramı seçmə, halal məqsədə çatmaqdansa
Pay ver öz dostuna düşmanına satmaqdansa

Falçıya cadugərə biz əl uzatmaqdansa
Yaxşısı, əl uzadaq yetimə Xuda xatirinə

Gözümün nuru gedibdir daha əndişəndən
Yapışıb zülm ile tutdum mən axır tişəndən
Kökünü tişən ilə tişələdim rişəndən
Nola dərdim yenidən bitmə Xuda xatirinə

Sözdən ayrı, sənə yox çarə şəfasızlar tək
Var sözün şükr eliyib olma xudasızlar tək
Sadiq ol dosta, yara yoxsa vəfasızlar tək
Ey Səfa üz çevirib getmə Xuda xatirinə

22.11.2012

Mən istərəm ki, dilbərin nazın çəkim cəfa deyil
Sevib sevilməyim gərək, unutmağım rəva deyil

Nə qorxuram ki, düşməyəm məhəbbətin bəlasına
Cəhənnəmin bəlası mən üçün böyük bəla deyil

Məhəbbət eşqi ilə Yusifim sevib Züleyxasın
Düşür mənim də payimə ki, sevməyim xəta deyil

Bu sevgi bir əmanətim, siz etməyin xəyanəti
İlahidən gəlib bizə bu əmridir rica deyil

Ey afətim xuramanım inan sədaqət əhliyəm
Canım vəfalıya fəda, vəfasıza fəda deyil

Gözəlliyinlə fəxr edib, şükür qılıb sevinmədin
Məgər bizə bu cismi-canu xəlq edən Xuda deyil?

12.12.2012

Mən içdikcən süzür saqi

Vücud pis, ruh xoş əhvalda
Ömür sürdüm bu minvalda
Məni-sərxoş bezən halda
Gəl amma ki, bezir saqi

Verir zövqi-səfa öylə
Bu şəxsə nur, ziya söylə
Qaranlıq qəlbimi meylə
Girib birbaş gəzir saqi

Pərişan rindi-həmdəmlər
Məlaldan bəlli görkəmlər
Cəmalından yağır qəmlər
Könül daşdan dözür saqi

Olur şaş tazədən hərdən
Kəsir mey kuzədən hərdən
Çıxır əndazədən hərdən
Süzür az qəlb üzür saqi

Səfanı, iltica üzmə
Buyur süz qaçma yan gəzmə
Gözün süzmə, dodaq büzmə
Ol əmrə, müntəzir saqi!

19.12.2012

Oğul hal-əhli olma, götür ibrət atandan
Böyük bir kəs ki yoxdur, sənə əlbət atandan

Biqeyretdən götürmə, çalış töhmət eyibdir
Zərər yoxdur sən alsan, əgər töhmət atandan

Pərişan etmə bir an, üzərsən qəlbi yoxsa
Sevinc hissi olar qeyb, doğar nifrət atandan

Nədir möhnət əzabı, nədir qəm qüssə hicran
Uzaq düşsən bilərsən, neçə müddət atandan

Ataya kim baxar kəm, deyil bizlərdən əsla
Nələr gör bəhs edirmiş, cənab həzrət atandan

Gər istərsən gözəl gün, yaşam tərzin dəyişsin
Oğul səndən buyurmaq, gərək dəvət atandan

Atan qeyrətli bir şəxs ,yolun eylə davam get
Sən övlada deyərlər, keçib qeyrət atandan

Demə hiddət nədəndir, səbəb sənsən ey övlad
Başın yüksək edərsən, gedər hiddət atandan

Səfa qəm çəkmə çünki, Vəfa tək bir atan var
Fəxr hissi qıl harda, düşər söhbət atandan

Cənab həzrət- Peyğəmbər nəzərdə tutulub

01.01.2013

Şərafətdir, uca addır müəllim
Savad elmə çatan daddır müəllim

Tiri-elmin dəqiq sancır zəkadən
Öz irfanında səyyaddır müəllim

Duyursan her mehinden bir mərifət
Bizə sovqat gələn baddır müəllim

Müəllimsiz təməl təsvir olunmaz
Mətanət xəlqə bünyaddır müəllim

Neçə alim, neçə şair yetirmiş
Vətənçün layiq övladdır müəllim

O heç bir vaxtı kəcgərdan dayanmaz
Əyilməz qəddi-şumşaddır müəllim

Səfa sən ərmağan verdin qəzəlnən
Biləydin kaş nə cür şaddır müəllim

Tiri elmin---elmin oxunu
İrfan-elm
Bad-külək
Bünyad-təməl
Qəddi-şumşad—düz qamət

02.01.2013

Batardı din-şəriyyətim nə yaxşı var bu Mollalar
Böyük xətaya girmişəm günahımı yu Mollalar!

Səbəb nədir de? tənəyə gəlir ki falçı cadusu
Günah hesab olunmayır edəndə cadu Mollalar?

Özümdə bilmədən, qulaq asıb imansız olmuşam
Oğurlayıbdı sən demə imanı oğru Mollalar

Buyur çağır hüzuruna balam nə tipdə istəsən
Ki, vardı qaməti uca, uzun ya yumru Mollalar

Bizə "barış-barış "deyib, demirlər özlərindən heç
Biri-birilə dinməyir yamandı qonşu Mollalar

Mərizi Molla yanına aparmamış fikirləşək
Bizə necə verər şəfanı əqli-sayru Mollalar?

Camaat öz hayındadır bu sanki restarandadır
Sifariş eyləyir mərasimində menyu Mollalar

Satiranın kalendarın varaqlasaz görərsiniz
Dünənki mövzu Mollalar, bu günkü mövzu Mollalar

Səfa ədalət əhlisən otursan əyri, düz danış
Əgər yalançı Molla varsa, vardı doğru Mollalar

03.01.2013

Sual qalmır cavabsız
Ömür keçmir əzabsız

Bəşər rahi-behiştə
Olar qəbul savabsız?

Kübar acdır kababnan
Kasıb toxdur kababsız

Həya hər kimdə yoxsa
O, bir güldür gülabsız

Biri var, yox qabında
Biri vardır ki, qabsız

Səfa sadə sənətkar
Çağır bəysiz, cənabsız

05.03.2013

Dağıl dünya! Məni gör kim bəyənmir
Savadı olmuyan, alim bəyənmir

Siçan boyda ediblər əjdahanı
Dayandır öylə bir nəşvü-nümanı
Bəyənməzdi qabağ alim gədanı
Bu saat zalimi, zalim bəyənmir

Ağıl başında yoxdursa, götür kəs
Müsəlman laldı, kafirdən gəlir səs
Bu dünyada, Xudanı sevmiyən kəs
Məhəmməd sevmir, İbrahim bəyənmir

Nə fərqi qızdır, oğlandır müsəlman?
Ki, dərk eylə hər iksi, payi-sübhan
Pədər madəri istər bimar oğlan
Qız övladın, fəqət salim bəyənmir

Demə Molla Pənah Vaqif mənəm mən!
Sənətkar olmağından, vurma dəm sən
Əgər qabında, yoxdursa ha öyrən
Sənət bir vergidir, təlim bəyənmir

Soruşma məndən, hardandır məharət
Təkəbbürlük, yaraşmaz bir xəcalət
Bilir kim, kimdi xalqım, yoxdu hacət
Səfa Fərzanədir, təqdim bəyənmir

Nəşvü-nüma~~böyümək, inkşaf
İbrahim,Məhəmməd- peyğəmbərlər
pədər-madər ~~ata-ana
salim-salamat

27.01.2013

Aman Allah neçə məscid sökülür bar tikilir
Bu müsəlmanlığa ziddir nə səbəb var? tikilir

Əmr gəlmiş ki, bu il məscidimiz tam sökülə
Sökülən yerdə araq, pivəyə anbar tikilir?

Tanrı dərgahını insana qoyublar qadağan
Ki, günah bizdədir üz vermişik astar tikilir

İnkşaf etmədədir dərziçilik, fabrikalar
Oğlanın əyninə yubka, qıza şalvar tikilir

Nahəqin qapsı açıq, bağlıdır haqqın qapısı
Qapıya bircə çəkicnən iki mismar tikilir

İndi də elan edirlər ki, qiyamət gələcək
Allahın təqvimi üstündə kalendar tikilir

Bakirən işdi xanım batil olar, çəkmə kədər
Orginal bakirəlik parçaya oxşar tikilir

Çəkilib küncə otur, seyr elə lal karlar tək
Əşi Fərzanə cəhənnəm açıq-aşkar tikilir

28.05.2013

Axırı düşüb eşqə, mən də bir gözəl sevdim
Görkəmi mələk sima, qaşi-çeşmi ləl sevdim

Saydığım əlamətdə, körpə xəlq ola bilməz
Söhbəti şirin şəkkər, xisləti-dəcəl sevdim

Dönmərəm geri heç vaxt, sadiqəm vəfadarəm
Əhti-peymanım vardır,eyləyib əməl sevdim

Danmıram, mən ol yardan, küsdüyüm günüm vardır
Sevmiyən günün yoxdur, hər zaman əzəl sevdim

Qəlbə çox bəla gəldi, təsir etmədi amma
Qopdu min tufan leysan, əsdi hey xəzəl sevdim

Yardan ötrü sən oldun, eşqin əhli Fərzanə
Düşdüyün məkan sevgi, yazdığın qəzəl 'sevdim'

31.05.2013

Varlığın Xudavəndin, dərk edib hüda tapdım
Sanki bir qaranlıqda nuri-şəm ziya tapdım

Neynirəm həbib, dostu neynirəm ki, sirdaşı
Onda bir sədaqətlik, onda bir vəfa tapdım

İntiha deyil eşqin, xəlq olunmamış səndən
Bətni-madəri içrə eşqi-ibtida tapdım

Min dəva edib loğman çarə tapmadım ALLAH!
Birdəfə çəkib namın dərdimə şəfa tapdım

Çox dolandım avvarə, müxtəsər qərar verdim
Həmdülullah olsun ki, haqq yolun Səfa tapdım

Səfa Məcidov Fərzanə,14.11.2013,gece 02 30
Qeyd.Qəzəl həzəc bəhrinin fAilun məfAİLun-2 təfilsində yazılıb
bətni-madər ----ana bətnində
eşqi-ibtida ----başlanğıc eşq

14.11.2013

Ədalətsiz ömür sürdü mənim yazıq kasıb xəlqim
Bu haqsızlıqları gormüş nədəndir bəs susub xəlqim

Nə ərzaq var, nə taqət var vəli tərk etməyib cəngi
Döyüşdən yox, soyuqdan yox acından qan qusub xəlqim

Yari sünni, yari şiyyə cüda olmuş müsəlmanlar
Sədayi-şeytana uymuş qulaq əfsus asıb xəlqim

Xilaskarı bu dövranın ümid var ki, gələr bir gün
Zamanın sahibi üçün hər an yollar pusub xəlqim

Səfa xəlqin cəsurdildir görər bədxahilər bir gün
Qarabağı edib azad ayaq xakə basib xəlqim

vəli-amma
xak-torpaq

03.12.2013

Sərxoşluq edən dövlət, hüşyar olacaq bir gün
İllərdi yatan bəxtim, bidar olacaq bir gün

Xəlvət o qədər işlər, gördük ki bu dünyadə
Dərk eyləmirik neyçün?, aşkar olacaq bir gün

Bir gəz doğulur məxluq, bir gəzdə ölür məxluq
Düşvarki, yaranmışlar təkrar olacaq bir gün

Zalim eliyər zülmü məzlumilərə hər gün
Amma ki düşunmür o, bimar olacaq bir gün

Bir parçada nan olsa şükran eliyək çünki
İnsanlara insanlar iftar olacaq bir gün

Arzu eliyir daim öz sevdiyi yar iylə
Fərzanə Səfa Həccə zəvvar olacaq bir gun

hüşyar-ayıq
bidar-oyanar
bir gəz-bir dəfə
düşvar-çətin
Qafiyə.. Nizami Gəncəvidən

29.01.2014

Haramdan əl çək ey insan halal pulçun halal işlə
Bu dünyadə dolanmaqçun aşağı başı sal işlə

Bazarlarda bahalaşma dəyər qalxır günü gündən
Bu gün çox pul qazanmaqçun dünənkindən fəal işlə

Üzülmə çox sənə qurban, əgər görsənki iş getmir
Bir anlıq ailə övlad həmən eylə xəyal işlə

Pulu pul üstə qoymaqdan, şikəst oldu bu məmurlar
Yazıq fəhlə dəmirdənsən sənə yoxdur zaval işlə

Nə bir dost var, nə bir qardaş qərib yerdə nə karin var?
Uzaq getmə, elə doğma ocaq yurdunda qal işlə

Ata olma narahat heç, sənə xoş müjdəmiz vardır
Şükür Allah olub təmin Səfa işlə, Tural işlə

02.02.2014

Ədəbsizlər ədəb bilməz
Şərəf bilməz, həsəb bilməz

Biqeyrətlər bu dünyayə
Neçin gəlmiş səbəb bilməz

Nolar Quran ərəbcəndir
Hər izahın ərəb bilməz

Yarı çılpaq, ya çılpaqdır
Ölüm gəldikdə dəb bilməz

Geca-gündüz əzab, zillət
Fəqir rəncu-təəb bilməz

Gözəl insanlara Allah
Qəzəblənməz, qəzəb bilməz

Kədər, qəm qüssədir dostu
Səfa hissi-tərəb bilməz

Həsəb-adsan
Rəncu-təəb.--əzab yorqunluq
Hissi-tərəb--sevinc hissi

02.02.2014

Sevgilim məni axır ağladıb çıxıb getdi
Nazu qəmzəsi ilə aldadıb çıxıb getdi

Sidqi qəlb ilə sevdim, xeyri nə fəqət yarim
Sevgimi oyuncaq tək oynadıb çıxıb getdi

Bir zaman gülən yarim qəmlidir hüzurumda
Qaş qabaq töküb başın salladıb çıxıb getdi

Məndən ol gözəl dilbər istifadə çox etdi
Loru dildə bir söznən firladıb çıxıb getdi

Yari dəngsər etdin, güc bəlayla dilləndi
Sevmirəm səni şair anladıb çıxıb getdi

09.02.2014

Şahdı dərd bizə sanki, olmuşuq nökər dərdə
Durmadan gəlir artır, yox qoyan qədər dərdə

Həmdəm oldu hər gün dərd, bezmişik bu dərdlərdən
Bəlkə də bezir bizdən, eyləsək nəzər dərdə

Bilmirəm nə var dərddə, qəmküsarimiz dərddir
Ehtiyac duyur şimdi, büsbütün bəşər dərdə

Saxlamaq deyil mümkün hər evə olur mehman
Xeyri yox dəmirdən də, qoysalar çəpər dərdə

Üz tutur ona hamı, dərdin izhar etməkçün
Kim bilir nə zülm ilə, tab edir xəzər dərdə

Harda var xeyir orda, şər də vardır ey insan
Əl çəkən deyil səndən, ha de əlhəzər dərdə

Qəm kədər sevinc ilə, tənbətən ekizlərdir
Axşamın görən şadlıq, rast olur səhər dərdə

Təkcə pul, qarın dərdin, ləğv edər bu dünyadə
Pulda görmə hər dərman, çarə etməz hər dərdə

Gecdi biz ayılsaq da sən demə neçə ildir
Gül kimi olan ömrü, vermişik hədər dərdə

Dün gecə biri vardı, əhli-dərdə lağ etdi
Allahım onu öylə saldı beşbetər dərdə

Ey İmam Hüseyn şahım qalmadı qanın yerdə
İt kimi Ubeydullah, düşdü eybəcər dərdə

Dərd Səfa ilə dostdur, dosta dost zərər verməz
Onda sən günah görmə öyrəşib kədər dərdə

14.02.2014

Solar mənim ömür bağım, gülüm əgər sən olmasan
Sənin bu aşiqin ömür sürər hədər sən olmasan

Nolar gülüm, təravətim hər an yanımda ol çalış
Gecə olur mənə açılmayır səhər sən olmasan

Dəhanımın, damağımın təamısan ki, dərk qıl
Mənə şirin şəkər su da gələr zəhər sən olmasan

Apararam mübarizə, yolunda hər zaman gülüm
Canım rahat olarmı ta ki bəxtəvər sən olmasan

Nə yaxşı varsan ey gülüm mənim yanımda yoxsa ki
Kədər sevinci məhv edər, çalar zəfər sən olmasan

Səni görüm ki zail, ol puç ol görünmə gözlərə
Sevənlər hamı şənlənər əgər kədər sən olmasan

Demək səni sevir yazır, ay üzlü dilbərim mənim
Səfa bu barədə yazan deyil əsər sən olmasan

16.02.2014

Bəlayi-eşq dərd qəmin dözüb bəlayə çəkmişəm
Ki, öylə ah etmişəm bulud səmayə çəkmişəm

Geca gələndə hicranın qəmi təbah edir məni
Əcəl məni aparmayıb şükür səbayə çəkmişəm

İlahi rəhmi qıl mənə məgər günahdı sevməyim?
Zülümləri könül verib bu məhliqayə çəkmişəm

Gülüm nolar ki, rəhmə gəl məni şad et nə cür ki mən
Özüm gəda günündəyəm sığal gədayə çəkmişəm

Nə eylədim ki dönmədin sözündən amma kafiri
Namazə dəvət etmişəm abır həyayə çəkmişəm

Soruşsalar ki, yar çəkəndə nazını nə etmisən?
Utanma sən də söylə öylə dağ Səfayə çəkmişəm

27.02.2014

Ey insan az günah eylə
Gəlib haqqa pənah eylə

İtaətdən gəda qaçma
Veribdir əmri şah eylə

Bir iş tutduqda ölçüb biç
Nə kari, sonra ah eylə

Baxıb naməhrəmə uyma
Halal yolnan nigah eylə

Tələsməynən düzəlməz iş
Bu gün saxla, sabah eylə

Əgər dansam səni Allah
Kəs ömrümdən kütah eylə

Keçib ağsaqqal olmaqdan
Saçin ağdır siyah eylə

Riyakar! fərqi yox dinə
Əməl gah etmə, gah eylə

Səfa düşmənlərin çoxdu
Sözün dildə silah eylə

07.03.2014

Gələr ruzi-qiyamət
Deyil bəlli o müddət

Qalar yar aşiqə həm
Ana övladə həsrət

Bəşər rəhmət apardı
Aparmaz vari-dövlət

Müsəlmanım! buyur gəl
Müqəddəs yol şəriyyət

Xudayə bəllidir bil
Nə iş görsəndə xəlvət

Öpüb əcr al ananın
Ayağın altı cənnət

Müəllim ol xeyir ver
Savabdır öyrən, öyrət

Dəri-dərgah açıqdır
Hər an haqq etdi dəvət

Oğul öylə zamandır
Edib hörmət, gör hörmət

Kimin meyli tamahdır
Ölüb çəksin xəcalət

Vəfasız sevmə onda
Yox it qədri sədaqət

Pul hər vaxt var fənadır
Əsas mənlik, ləyaqət

Quraq düzgünlük üstə
Edək inşa ədalət

Səfa haqdan danışma
Başın saxla səlamət

12.03.2014

Toyda bəyə arzumdu ki, daim ola xoşbəxt
Yarıyla ömür bağı gəzə qol-qola xoşbəxt

Sevda quşu xoşbəxtdi qonubdur sizin evdə
Dolduqca yaşa sizlə bərabər dola xoşbəxt

Xoşbəxtliyə sarıdısa atdıqları addım
Torpaq yaza onlar gəzən hər bir yola xoşbəxt

Aşiq pir olar yarını dərd çəkməyə qoymaz
Bülbül oxudu istədi, ki gül sola xoşbəxt

Xoşbəxtliyə üz döndərən insan iki üzdür
Cəhd etsə də birdə girə bilməz rola xoşbəxt

Ən sonda Səfa istədi bir övladın olsun
Şıltaq kimi qaçsın sağa, qaçsın sola xoşbəxt

Mənim bir ayrı dilbərdə gözüm yox
Gözüm toxdur xəyanətkar üzüm yox

Məhəbbət yolların cızdım sənlə
Bu yolda başqa canannan izim yox

Sənə yetmək üçün illərdi dözdüm
Demə gəl ayrılaq artıq dözüm yox

Gülüm gəl qəlbimin söndürmə şəmin
Onu yandırmağa kibrit, közüm yox

Ömür sənlə, sürüm sənlə ölüm mən
Qərar böylə verib qəlbim, özüm yox

Səfa yarın gözəllərdən gözəldir
Həya arından heç olmaz sözüm yox

04.04.2014

Adam vardır bu dəhrə, gələn gündən zəlildir
Adam var şad, xürrəm ölüncən müstəqildir

Dilin dinc saxlayarsan keçər ömrün firavan
Gələrsə başə hər nə bəlası bil ki, dildir

Et izhar eşqi yarə rəqibi qoyma sevsin
Əgər ki, aşiq olsan çalış vaxtında bildir

Qəzəlxanlar Səfanı edərlər əhv çünki
Həvəskar bir yazardır, hənuz ustad deyildir

20.04.2014

Qarabağa nəzər salaq, kəsibdi çox baş erməni
Qıyıb neçə günahsıza, şərəfsiz oğraş erməni

Təcavüz eyləyibdi altı yaşlı bir kiçikk qıza
Satıbdı namusun, arın alıbdı daş qaş erməni

De! səndə zərrə rəhm yox? əsiri zorla öldürüb
Baxıb sevincəyindən olmusan gözü yaş erməni

Cəsarəti çatan deyil, sənlə üzbə üz dura
İgid! muğayat ol ki, arxadan atar daş erməni

Sənə necə müraciət edim? Özüm də bilmirəm
Dilim də gəlməyir sənə deyim ki, "yoldaş" erməni

Şərabi Saqi! az süzün babalı düşməsin sizə
Edər hücum anasına, olarsa əyyaş erməni

O körpənin günahı nə? o annenin günahı nə?
Sənə baha başa gələr bu qanlı yaddaş erməni

Anaların duaları, dönübdü nalə qarğışa
Olaydı kaş cəsədləriz, köpəklərə xaş erməni

İlahi məsləhət sənin, fəqət Səfadan olsa gər
Doğulsun it, pişik fəqət doğulmasın kaş erməni

27.04.2014

Bir kimsə əlimdən səni ey yar ala bilməz
Alsa əgər Allah alar əğyar ala bilməz

Qorxaqdı əcəl hətta məni sənlə görəndə
Xəlvətdə alar canımı aşkar ala bilməz

Sevgin gözəlim! qəlbimə bir mənzərə tikmiş
Bir böylə sənət təhsili memar ala bilməz

Yari yetirən aşiqə sevdasıdı yoxsa
Yar istədiyin olsada vadar ala bilməz

Çək nazını yarın gülüşün, gör! necə bağban
Göstərməsə qayğı gülə gülzar ala bilməz

Mütləqdi ki, xoş xasiyət olsun sevən aşiq
Bəd xislət olan zövqi-çəmənzar ala bilməz

İncitmə Səfa! yarını vay halina qorx ki
Yar könlünü sən yazdıqın əşar ala bilməz

27.04.2014

Canan! məni tərk etmə, dözməz bu könül sənsiz
Viranə qalar sanki ,bağlardakı gül sənsiz

Bir vaxtı bu qəlbimdə sevda təməlin qurdun
Hicran elə tərpətdi, məhv oldu özül sənsiz

Sevdayə düşüb! başə sevda tacı qoymuşdum
Yar sən gedəni oldu, bu başıma kül sənsiz

Eşq mənzilimiz boşdur, hər pəncərəsindən mən
Sahibsiz otaqlar tək, asdım qara tül sənsiz

Ondansa Səfa ölsün çünki ona ey dilbər!
Bu dəhrdə ömr etmək asan döyül sənsiz

30.04.2014

Allah! sən özün aşiqi dildarə qovuşdur
Aşiqləri qoyma qala avvarə qovuşdur

Bimar eliyibdir məni eşq içrə bu həsrət
Allah! bu sağalmaz cana tək çarə 'qovuşdur'

Yarsız mənə bir gün özü bir ildi İlahi!
Nolar daha son qoy acı rəftarə qovuşdur

Allah! sənə illərdi yetir vəslə deməkdən
Bağrım qan olubdur cigərim parə qovuşdur

Öz yarına məndən savayı hamı qovuşdu
Rəhm eylə Xuda! gəldi canım zarə qovuşdur

İllər boyu cəhd etdin ayırdın bizi şeytan!
Birdəfə xoş iş gör ki gəlib karə qovuşdur

Tanrı! bu Səfanı elə şad şeyrinə xatir
Tezliklə o cananı sənətkarə qovuşdur

06.07.2014

Xoş gündü bu gün ad günüdür sevgilimin
Xoşbəxt adamam bağbanıyam öz gülümün

Acizdi dilim sevgilimin sağlığına
Haqqında desəm qüvvəti çatmaz dilimin

İşdir gözəlim sevgimə etsən şübhə
Bax gözlərimə güzgüsüdür daxilimin

Biganəni mehman edə bilməz bu könül
Yarımdı mənim sahibi-eşq mənzilimin

Dünyadə gözəl hər nəyi görsəm sənsən
Hətta belə dörd fəsli də sənsən ilimin

Əhv et məni tək qeyd edirəm ad gününü
Tutmur meyi də taqəti yoxdur əlimin

Gənc ölsə Səfa naməni yazdım biləsən
Hicran ilə həsrətdi adı qatilimin

21.07.2014

Bir gün, köçərəm mən bu cahandan gözəlim!
Bezdim daha bu, dövrü-zamandan gözəlim!

Mənalı həyatı mənə sən bəxş elədin
Ömr eyləmədim şükr yalandan gözəlim

Laldan da betərdir mənim halım bu gecə
Nitqim tutulub ahu-fəğandan gözəlim

Ən vacibi xoşbəxtliyimiz, baxmayaraq
Çox arzularım keçdi gümandan gözəlim

Dünya salır ayrı məni səndən yoxsa
Doymaqmı olar ruhi-rəvandan gözəlim

Dünya nə sənindir nə mənimdir, de görüm!
Qalmışdı Süleymanə haçandan gözəlim?

Az qaldı cavan ömrümə can tapşırıram
Busə dilə son dəfə dəhandan gözəlim!

Növrəstə Çinar idi Səfa , lakin onu
Yarpağları tərk etdi xəzandan gözəlim

09.01.2015.

Yar ! dərdimi hardan biləsən sən?
Qorxum budu bilsən güləsən sən

Ya fəsli-baharsan ya zimistan
Gahi beləsən gah eləsən sən

Yoxdur ümidim qəbrimin üstə
Baş çəkməyə hərdən gələsən sən

Sən tək nə qədər vardı vəfasız
Zənn eyləməki bir giləsən sən

Milyon gözələ göz yumaram mən
Qəlbimdə əvəzsiz hələ sənsən

Sənsiz yaza bilməzdi Səfa söz
İlham gətirən də dilə sənsən

09.01.2015

Məcnun kimi səhralərə düşdüm
Leyla məni dərk eyliyə bilməz
İnsan məni dərk etməyə aciz
Dünya məni dərk eyliyə bilməz

Bu dərd mənə sirri müəmma
Tale belə çəkmiş buna imza
Olsun neçə dost aşinam hətta
Amma məni dərk eyliyə bilməz

Olduqca mürəkkəbdi qəlizdir
Ağlar gözümün yaşı dənizdir
Qəlbim kimi şəffafdı təmizdir
Dərya məni dərk eyliyə bilməz

Allahadı bir təkcə ümid var
Yaddan ola bilməz mənə qəmxar
Yarım məni dərk etmədi, əğyar
Əsla məni dərk eyliyə bilməz

Tərk etdi məni sevdiyim afət
Sevdim yenidən olmadı qismət
Baş açmadı məndən bu məhəbbət
Sevda məni dərk eyliyə bilməz

Fərzanə Səfayəm çəkirəm ah
Ölsəm məni hamı anar eyvah
Bir kimsə sağ ikən görən Allah?
Guya məni dərk eyliyə bilməz?

24.03.2015

Əhdim həmi andım həmi ilqarım ata
Həm hörmətim həm şöhrətim həm varım ata

Ac qalmısan amma bizi ac qoymamısan
Dansam, deməli yoxdu həya arım ata

Xoş gündə də pis gündə də tək qoymamısan
Dostdan da əzizsən mənə qəmxarım ata

Uğrumda əsir oldu quru canından
Qurban elədi keçdi fədakarim ata

Qeyrətli ömür hər kişinin kari deyil
İsmin kimi əhdində vəfadarım ata

Heç bir əməl üqbadə cavabsız qalmaz
Cənnət nəsib etsin sənə ol Tarım ata

Pirani də olsam dara düşsəm deyərəm
Gəl gəl yetiş imdadə xilaskarım ata

Dünyadə səni etməz əvəz heç birisi
Dost aşina ya istədiyim yarım ata

Əslində dəyərsizdi bu, şerim çün, adın
Vardır deyə qiymətlidi əşarım ata

05.04.2015

Dünyada yaşamaq dözüm istəyir
Həqiqət görməyi gözüm istəyir
Vicdanım təmizdir imkan vermiyir
Sırtıqlıq eyləsin üzüm istəyir

20.06.2015

Könlüm daha dözmür
Hər şey baha dözmür.
Bir halda bu dərdə
Div əjdaha dözmür.

Bəxtim nə gülübdür
Pis vəqt gəlibdir.
Heçkim də rəhm yox
İnsanlıq ölübdür.

Göz yaş gilə gəldi
Həftəm ilə gəldi.
Dünyanın əlindən
Canım dilə gəldi.

Evlən demə çox-çox
Evlənməyə pul yox
Üç yüz maaşımla
Külfət olacaq tox?!

Dəhşətdi bu,dəhşət!
Pis gündədi millət.
Biz elm alaq hardan?
Təhsildə də rüşvət.

Ölmək demə bir də
Olma bu fikirdə.
Ən yaxşısı ömr et,
Pulnandı qəbir də !

26.04.2015

Hər yerdə tıxacdır, basabasdır.
Guya ki, bu yol pervi klasdır.

Neynək axı! nazir başa düşmür
Yol tikməyə pul yox baş əsasdır.

Sağlam yolu bərbad hala salmaq
Yoldan alınan, qanlı qisasdır

Daxildə deyir, bir dəli şeytan
Edam eləyib bunları asdır

Məmurları təsvir belə eylə.
Zahirdə qızıl tək, içi pasdır

Üstün tuturam hər geyimindən
Haqq kəlməsi əynimdə libasdır

Xalqın puludur ciblərinizdə
Şəxsiyyətiniz bəs kimə xasdır?!

Əlbətdə, kasıblıq nə qanarsan?!
Süfrəndə ucuz tək ananasdır.

Səbr eylə Səfa! Allaha xatir
Səbr eyləmək ən ali xilasdır

27.04.2015

*Hikmətli kəsi xar eləmək, cahilə xasdır
Yox xeyri, fərasətsizə quran qulaq asdır*

* Molla Niyaz Ərəşliyə* təxmis

Ya-ya-ya yanında olmaq, xə-xə-xə xəyal olubdur
Nə-nə-nə nə istədim mən, zə-zə-zə zəval olubdur
Mə-mə-mə mənimçün hər gün, mə-mə-mə məlal olubdur
Şə-şə-şə-şəha,camalın kə-kə-kə-kəmal olubdur
Lə-lə-lə-ləbin şərabı zü-zü-zü zülal olubdur

Gö-gö-gö gözəlliyindən, o-o-o olalı agah
Bə-bə-bə bərabərində, yo-yo-yo yoxundu vallah
Kü-kü-kü küsürsən ey gül, ba-ba-ba barışmısan gah
Tə-tə-tə-təbarək Allah ,cə-cə-cə-cəmalın,ey mah
Gü-gü-gü-Gün ilə Ayə mi-mi-mi-misal olubdur

Nö-nö-nö nökər təkəm xan, ə-ə-ə əsiriyəm mən
Bu-bu-bu bu dünya zindan, ə-ə-ə əsiriyəm mən
Hə-hə-hə həmi o canan ə-ə-ə əsiriyəm mən
Bə-bə-bə-bəlayi -hicran ə-ə-ə-əsiriyəm mən
Xə-xə-xə-xəyali -vəslin mə-mə-mə-məhal olubdur

Va-va-va varındı əxlağ, yo-yo-yo yoxundu nöqsan
Mə-mə-mə mələksən ey gül , de-de-de deyilsən insan
Sə-sə-sə səmimi qəlbdən, de-de-de deyir bu nalan
Gö-gö-gö-gözün hərami o-o-o-olalı ey can
Sə-sə-sə-sənə bu qanım hə-hə-hə-həlal olubdur

Sə-sə-sə Səfa bu eşqə, e-e-e edibdi təzim.
Zi-zi-zi zikr olubsan, di di di dilimde daim
Ki-ki-ki, olaq sənlə, və və və vəfadə qaim
Ni-ni-ni-Niyazi halın se-se se sevir qəmər kim
Qə-qə-qə-qəmin yeməkdən hi-hi-hi-hilal olubdur

10.05.2015

Öpərəm, şövq ilə zəhmətkeş əlindən anamın
Mənə, çox xeyri dəyib hər əməlindən anamın

Dən salıb saçlarının, həpsinə zalım dünya
Qalmayıbdır bir əsər, qarə telindən anamın

Deyər oğlum! sənin uğrunda bu, candan keçərəm
Zərrəcə, qorxusu yoxdur əcəlindən anamın

Göz açandan onu rahət yaşıyan görməmişəm
Qəlbi məndən, narahatdır əzəlindən anamın

Gözəlim! çox demə səndən gözəl üstün yoxdur
Vardı üstünlüyü dünya gözəlindən anamın

Saxla hər vaxt, anamın hörmətini övlad tək
Gələr əlbət, xoşu ismətli gəlindən anamın

Bu Səfa kimdi görən? nəzmə çəkibdir ananı
Halı, əhvali düzəldi qəzəlindən anamın

28.06.2015

"Ömrümə az qalıb gedirəm artıq"

Gəlib məzara baş çəkmiyin mənə
Yas tutub qurmayın adət, ənənə
Gülürəm öləndə gülərəm yenə
Öləndə demiyin getdi bu yazıq

Verirəm and səni ağlama gülüm
Qəbirdə cismimi dağlama gülüm
Gözünün yaşın sil bağlama gülüm
Qapqara zülfünə qapqara yaylıq

Ölməmiş bir yuxu görmüşəm gecə
Qəbirdə susamış halda sadəcə
Buludlar ağlayır mənimçün necə
Yağışın yağdırır verir qonaqlıq

Ey zalım öyünmə səndə nə vardı?
İnsanlar sərnişin dünya qatardı
Hər kəsən özüylə bir şey apardı
Səndə pul məndə də söz dolu sandıq

28.06.2015

Canımı məndən alır ,baxdıqca şəhla gözlərin
Bəxş edibdir ömrümə, bir ayrı məna gözlərin

Sevgilim! zülfün gözəl, nazın gözəldir amma ki,
İlk baxışdan qəlbimə, salmışdı sevda gözlərin

Gərçi, qəlbində həsəd olmazsa hər bir nazənin
Sidq ilə söylər ki var ə`ladan ə`la gözlərin

Mən səni Leylalərə bənzətməm əsla sevgilim
Çün mənə Leyladan artıqdır o rə`na gözlərin

Bir dəfə getsən əgər, gül bağına gül süzməyə
Etdirər bülbüllərə min nəğmə ifa gözlərin

Gözlərindən bir ömür sürsün Səfa doymaz yenə
İstəyərki ki, qəbrinə etsin təmaşa gözlərin

02.08.2015

Biz axı, dərd əhliyik, gülmək yaraşmır bizlərə
Ağlayıb göz yaşını, silmək yaraşmır bizlərə

Biz axı ,Şah İsmayıl, Babəklərin övladıyıq
Ermənіynən torpağı, bölmək yaraşmır bizlərə

Allahın, bəxş etdiyi can sağlığın qədrin bilək
Fani dünya qədrini bilmək yaraşmır bizlərə

Məzlumun, acizlərin ol həmdəmi çat dadına
Dinmə dəvətsiz yerə gəlmək yaraşmır bizlərə

Ey Səfa xəlq olmuşuq ki , yaxşılıqnan ad edək
Faydasız ömr eyləyib, ölmək yaraşmır bizlərə

04.08.2015

Yoxdur ele bir şey mənə, canandan əzizdir
Canan mənə, ruhumdan həmi candan əzizdir

Axtarmamışam dərdə dəva özgə gözəldə
Yarım mənə dərd versə də, dərmandan əzizdir

Namərd və riyakardan uzaq gəzmişəm ey yar!
Azadlığım əlbətdəki, zindandan əzizdir

Baxma yaşadım, xeyli gözəl anlar içində
Yar ilə keçən, bir anım hər andan əzizdir

Basdır məni, "yar dəfn olunan yer" alaq olsa
Mərmərdən olan, hər qəbiristandan əzizdir

Mən razı, cəhənnəmdə olum yar ilə birgə
Canansız olan, cənnəti-rizvandan əzizidir

Şair kimi, biganə məni istəməsin qoy
Onsuz da Səfa, yarə qəzəlxandan əzizdir

İstirahət, bilməyir yorğun canım
Səs, səmirsiz sızlayar, susqun canım

Öylə bir gün yoxdu ki, dərd görməyim
Sanki gəlmir ruhuma uyğun canım

Evsizəm, hər gün duamdır Allaha
Kaş, bu il görməzdi qar, çovğun canım

Qəlbimi, Allah adı pak saxlayıb
Nola, hər gün görməyib sabun canım

Pul pərəst əğyarı sevmə! sev məni
Ay sənin, şux sərvinə, vurğun canım

Mən həqiqət aşiqi, divanəsi
Əlqərəz, əfsanədir məcnun canım!

Növbəti dərddən Xudavənd saxlasın
Gördüyün görmüş Səfa! əfzun canım

21.09.2015

Yarım! bilirəm ki, məni ölsəm unudarsan
Hər dərdimi sənlə belə bölsəm unudarsan

Əvvəlki kimi ilk baxışımdan tanımazsan
Ölsəm, təzədən dövrana gəlsəm unudarsan

Gənc ömrümü, qarə telinin qurbanı etdim
Sərf, eyləməz idim sənə bilsəm unudarsan

Kimlər unudulmur ki, gülüm fani həyatda?
Qırx gün ,cəmi torpaqda əzilsəm unudarsan

Sənlə acı davrandığım üçün mənə söz ver
Mən, son nəfəsimdə sənə gülsəm unudarsan?

09.12.2015

Biz manat, zorla taparkən, dolanarkən birdən
Dolların qalxmağını, yüklədilər çiynimizə

Gece gördüm yuxuda, vergilərin beyni çönüb
Göz dikib, mal qaralardan alınan peynimizə

Üzdə dindarlığımız, olsa da pul parə üçün
Quranı, rus arağıynan qoyarıq eyni mizə

Daha bu ölkədə əldən kişiliymiz alınıb
Bircə o qaldı, gedək yupka geyək əynimizə

Qorxumuz, yoxdu Səfa! boynu yoğun məmurdan
Assalar da, yazarıq gəlsə kəlam beynimizə

30.01.206

Gəl yad eliyək keçmişi əvvəl kim olubsan?
Sən qanlar içib zülm eliyən zalim olubsan

Korropsiya ləğv olmağı haqqında danışma
Rüşvətlə alıb diplomunu alim olubsan

Sən az özünü bizlərə aslan kimi göstər
Məmurlara quyruq buluyan daim olubsan

Yoxsa adını bilməz idi bir köpək oğlu
Dillərdə pulun xatirinə təqdim olubsan

Millət nece tarac olur olsun nə işin var?
Qoy cümlə cahan batsa da sən salim olubsan

Barmaqlarını qatla kimə xeyrin olubdur
Ad var ki bizim ölkəmizə xadim olubsan

Əhsən Səfa xəlvətdə nə var aşikar etdin
Haqq şairi tək xalqın üçün təhkim olubsan

27.09.2016

Hansısa binamusa, biqeyrətə baş qoşmaram
Mənasız hər bir sözə hər söhbətə baş qoşmaram

Eybi yox daşdan çıxan ruzi halal xoşdur mənə
Min haramla əldə olmuş nemətə baş qoşmaram

Allahım təkdir mənim yoxdur şəriki as məni
Bütdə Allahlıq görən bir mürtətə baş qoşmaram

Yoxdur azadlıq mənə cananıma can borcluyam
Verməyincən canını hürriyyətə baş qoşmaram

Xəmrimiz şükr Allaha ki, mərifətdən yoğrulub
Zövqi-seytandan doğan eyş-işrətə baş qoşmaram

Neynirəm yarım mənim zərri-ziba tək yar ola
Valideynin sevmiyən bir afətə baş qoşmaram

Cahila can tapşırırsan, söyləyirdin bir zaman
Kim qalır, kimlər gedirsə rəhmətə baş qoşmaram.

Ya Səfa vaxtsız qocaldın çox düşündün hər şeyi
Bəlkə sən söz ver de ki, bir müddətə baş qoşmaram.

29.12.2016

Gözümün nuru sənsən gözəlim
Sən elə özümsən mənsən gözəlim

Sevgimlə düşmüşəm sənin izinə
Mənə cənnətdir baxmaq gözünə
Qəmlənmək yaraşmır,gözəl üzünə
Hər zaman görüm ki şənsən gözəlim

Görsən ölürəm çəkmə çox kədər
Danış sevgilim olmayım hədər
Ömrümə, ömür qatarsan əgər
O incə səsinlə dinsən gözəlim

14.06.2017

Əldən alınıb haqqımız ancaq susuruq biz
Haqqı hesaba gündə yalandan basırıq biz

Kül başımıza evdə acından ölür hər kəs
Qonşum qazanır pul necə? xəlvət pusuruq biz

Ac gözlük edib çox fəqirin malını tıxdıq
Yəqin bu səbəbdəndi ki, bir-bir qusuruq biz

Allah dediyin etsə idik, birlik olardı
Zənnimcə də şeytana qulaq çox asırıq biz

Şairləri, Alimləri öldükdə sevirlər
Cansız şəkilin xatirələrdən asırıq biz

28.10.2017

Nədən Ya Rəbb! bu dünyayə gəlib zalım, pis insanlar?
Nədən çoxdur pis insanlar, nədən az xalis insanlar?

Rəhmkar mehriban Allah! yetər qəddar üzün göstər
Qiyamət gəlməmiş çəksin, cəzasın iblis insanlar

Nə qeyrətsiz, nə namussuz, nə vicdansız doğulmazlar
Ana bətnində əxlağdan olarsa tədris insanlar

Səfa, əslində qədrin yoxdu sağlıqda bu adətdir
Öləndən sonra insanə qurarlar məclis insanlar

20.10.2017

Öyrən özünə sən də gün ağla cavan oğlan
Aç bir kitabı sən də varağla cavan oğlan

Başla Nyutondan, Qalileydən Edisondan
Alimlərin haqqında sorağla cavan oğlan

Bel bağlama var dövlətə yad dostlara heç vaxt
Bel təhsilinə, elminə bağla cavan oğlan

Avarəliyi qoy qırağa bir xeyir iş gör
Qoy hamı görə gəlmisən ağla cavan oğlan

Rəhmətlik atan çox dedi öyrən bala dərsi
Peşmançılığın xeyri yox ağla cavan oğlan

Dərk etməsə insan özünü yoxsa nə xeyri
Döysəm də səni, əllə çomağla cavan oğlan

İbrət sənə cahil gəzişən sınmış ağacdır
Sən gəzdin onu xırda budağla cavan oğlan

Aclıqda sənin çəkməyə dərdin məgər azdır?
Çəkdin siqaret hansı marağla cavan oğlan

Düz yolda sənin mərdiməzar qarşına çıxsa
Lənət denən addımla qırağla cavan oğlan

Tənqidi qəzəl yazmağımın məqsədi vardır
Diqətlə məni dinlə qulağla cavan oğlan

Qardaş kimi ərk etdi Səfa haqqa tələs gəl
Hörmətlə və izzət qanacağla cavan oğlan

10.12.2017

Dostumu xoşbəxt görüm Həqqi Təalla istərəm
Ömrünün hər anına bir ayrı məna istərəm

Çox gözəl gündür bu gün çün vəslə yetdin yar ilə
Ailən olsun təmiz eşq üstə inşa istərəm

Canla başnan əlləşib bir şer icad etmişəm
Kaş olaydı adına layiqli misra istərəm

İnşallah bir görək övlad payından ol nəsib
Fərqi yox oğlan ya qız əladan əla istərəm

Düzdür olmur insanın qəmsiz kədərsiz hər günü
Xoş gün içrə olmasın qəm vaxtı peyda istərəm

Xırda göz yaşın görüb kimlər əgər tən eyləyər
Onların göz yaşı olsun kaş ki dərya istərəm

Baxma gəncəm anlaram sevmək nədir pir olmuşam
Yüsifi Kənan kimi misli Züleyxa istərəm

Mən Səfanın xoş gözəl gündən səva yox arzusu
Xaliqimdən ən gözəl günlər təmənna istərəm

25.12.2017

Atasın qəbrini bilmir haradır həccə gedir
Anasın xəstə salıb üz qaradır həccə gedir

Dillənirsən ki anan acdı, deyir yoxdu pulum
Buna Allah necə imkan yaradır? Həccə gedir

Köpək oğlu yetimə bir qəpiyindən keçməz
Deyir əl çirkidi də pul paradır Həccə gedir

Bacının ölmüş əri evdə acından qırılır
Qardaşın geydiyi don zərxaradır həccə gedir

Nankor övladı üçün gorda narahatdır ata
Çat düşüb qəbrinin üstü paradır Həccə gedir

Atanın ruhuna bir yasini qıymır oxuya
Gəl ziyarət neçə min dollaradır həccə gedir

Mən bu şer atəşinə tutmuram hər bir həcini
Kim fırıldaqdı sözüm onlaradır həccə gedir

Dinə gəlməzdən əzəl vicdana gəl yaxşı olar
Bəndədə vicdan olandan soradır Həccə gedir

29.12.2017

Bilir Allah necə ah nalə çəkibdir Xocalı
Qırılan körpələrin orda nə idi babalı?
Cavabı susmaq olar, kimlərə versən sualı
Soyqırımdır bunun adı vurulub qəlbə xalı

26.02.2018

Hər iki dünyada, Allahdan bağışlanmazdılar
Hansı, övlad valideynə zülm edər qəddin bükər
Çox çox əfsuslar, ola dünyada çoxdur böyləsi
Valideynə dağ çəkib, öz yarının nazın çəkər

18.12.2018

Dosta düşmən kimiyik, düşmənəsə yarilərik
Yaxşını pislərə qatmaqda, xətəkarilərik

Tapa bilməz bir həkim dərdimizin çarəsini
Doğulandan bu fəna mülkünə bimarilərik

Köpəyin zahiri çirk, daxili xoş amma ki, biz
Üzdə xoş, sadəlövük qəlbi riyakarilərik

Səbrimizdən daha əvvəlki kimi yoxdur əsər
Etməmiş xətmi quran ayəsi, dindarilərik

Ruzi-məhşərdə bizi təsdiq edən olmuyacaq
Haqqı göznən belə görsək, yenə inkarilərik

Gündüzün gün gözüdürsə, gecənin aydı gözü
Hər nə xəlvətdə edərsək, açıq aşkarilərik

Boşuna yorma Səfa çox özünü xeyri nədir?
Şeri-mülkündə olan şairi-naçarilərik

26.08.18

Baba Pünhanın "Qudurğan olsa neynərsən?" qəzəlinə yazdığım nəzirə:

Yağış nemətdir, ancaq ki bu leysan olsa neynərsən?
Qaçıb gizlənmə yoxdu xeyri yeksan olsa neynərsən
Acından millətin bir gün yarımcan olsa, neynərsən?
O can üstə, sənin ömrün firavan olsa neynərsən?

Həyat çox darlaşıb artıq, necə dardır cığırlar da
Bu darlıqdan edir üsyan, neçə insan bayırlarda
Didərginlər səfalətdən əgər ölsə çadırlarda,
Vəkillər maliki-mülki-Süleyman olsa neynərsən?

Ədəb, əxlaq gözəl şeydir, bu təhsildə bu tədrisdə
Təki xalqım elmlənsin, demirsən heç gözüm üstə
Koroğlu qeyrətindən dəm vururkən Milli Məclisdə,
Müsəlman qızları məktəbdə üryan olsa, neynərsən?

Gözüm aydın gedib həccə, hacı olmuş Hacı Şakir
Dünən kartof satan qonşum, bu gün xalqın satan nazir
Vəkil artist, vəkil şair, vəkil xanəndə və sair,
Dəyirmanın əgər dənsiz dəyirman olsa, neynərsən?

Var ikən ölməyin sirrin, get öyrən qəlbi ölmüşdən
İşin yoxdur sən ey zalım, beli, qəddi bükülmüşdən
Əzilmişdən, üzülmüşdən, əyilmişdən, sökülmüşdən
Döyülmüşdən axan qanlar nahaq qan olsa, neynərsən?

İşi düşsə bir insana, gələr çox axtaran kəslər
Nə bilsəydim gələr bir gün olarlar baş yaran kəslər
Seçilməkçün düşüb mənzilbəmənzil yalvaran kəslər,
Seçildikdən bir az sonra qudurğan olsa, neynərsən?

Edər xalqa nələr agah? özündən olmuyan agah
Bizə gör kimlər örnəkdir efirlərdə ayıb vallah
Bu mavi ekranım çox əyrini düz göstərir, billah.
Tutub usta düzəltdirsəm, düz ekran olsa, neynərsən?

Şükür Allaha əlbətdə, ilin ilsə, günün günsə
Səfa dönməzdi yəqin ki, zamanın çərxi tərs dönsə
De ki, Pünhan, zaman dönsə, tutulsa Ay, Günəş sönsə,
Səmadan Zülfüqar ensə – o dövran olsa, neynərsən?

05.12.2018

Paxıllıq edirdin nədən? yanırdın
Yoxsa ki özünə çox inanırdın?
Zalımlıq gör səni nə günə saldı
Fağırın Allahı yoxmu? sanırdın

02.02.2019

Ömrümün xoş baharı, ətrli reyhanımsan
Tay, bərabərsiz olan sevgili cananımsan

Sevinir sən təki vardır anası, oğlum Əli
Həm həyat yoldaşısan, ən yaxın insanımsan

Min şükürlər ola, sənlə keçirən hər anıma
Yaxşı varsan gözəlim, mənalı dövranımsan
O, utancaq baxışından və həyandan yoxdur
İncə səsli, qarasaçlı gülərüz xanımsan

Alıram boynuma hərdən sənə çox hirslənirəm
Gəlki, əslində mənim dərdimə dərmanımsan

Evimin, ləzzətisən, övladımın cənnətisən
Bağısan, bağçasısan, güllü gülüstanımsan

Bizi xoşbəxt eliyən Allaha əl açdı Səfa
Yara can sağlığı ver, Xaliqi-Sübhanımsan

16.07.2019

fAİlAtün fAİlün
Can vətənpərvər balam
Yaxşı yol, əsgər balam

Heçnədən qorxmaz igid
Ən böyük addır şəhid
Ol Mübariz, ol Fərid
Dildə ol əzbər balam

Görməsin canın, məlal
Hərbi xidmət çək fəal
Torpağ uğrunda halal
Tökdüyün qan-tər balam

Erməni bəd heybətin
İşğal etmiş, dövlətin
Düşmənə güc, qüvvətin
Et subut göstər balam

14.08.19

Həyata pis deyən insan, başa düşmür özü pisdir
Cəmi insanlara baxsan, onu yaxşı yüzü pisdir

İki, üç yüz maaş ilə, kredit villa nöş almış
Soruşa bilməyirəm heç, deyəcəklər gözü pisdir

Neçə gənc qız ləkə salmış, o müqəddəs ana adna
Göbəyin üstü açığdır, ətəyin razrezi pisdir

O zamanlar ayağ üstə vətənin qoruyan oğlan
Niyə möhtaclıq əlindən, sürünür dizdizi pisdir

Toxun acdan xəbəri yox, nə bilir ki kasıb evdə
Sınıb stol, deşilib süfrəsi hətta mizi pisdir

Bişərəf oğlu olunca, ata kaş sonsuz olaydı
Tüpürüm mən belə bir yadigara hər izi pisdir

Çoxunu görkəmi xoş olmadığıyçün yola verdik
Kitabı aç oxu bir bax, nə olar cild üzü pisdir

Səfanın yazdığı şeri, xoşuna gəlmədi xalqın
Dedilər haqq deyənin bəs, acıdır hər sözü pisdir

08.05.2020

Qəlbimi fəth eləyən, sevgili dildarım var
Yüz gözəl yarə dəyən, öz gözəlim yarım var

Kişilikdən deyil o, özgəsinə həmdəm olum
Nəfsimin sahibiyəm, çünki həya arım var

Demə peyğəmbərimin bir neçə arvadı olub
Mən müsəlman belə olsam, ona inkarım var

Ola bilsin ki deyil, razı çoxu fikrim ilə
Gəl fəqət tək deyiləm, xeyli tərəfdarım var

Ol xəyanətdən uzaq, çünki bağışlanmazdır
Əksinə fəxr elə ki, əhtim həm ilqarım var

Ağlımı, birdə səadətmi əlimdən alma
Elə billəm ki, böyük səltənətim varım var

Olaq hər vaxt gözəlim, mərdiməzarlardan uzaq
İnşaAllah eşidər arzumuzu, Tarım var

Səfanın bağı-məhəbbətdə bitən laləsisən
Səni vəsf eyləməyə, söz dolu əşarım var

22.05.2020

Rəcəz bəhri, Müstəfilün-3

Haqq zalımı peşman edər, bir gün gələr
Dövranı xoş dövran edər, bir gün gələr

Çirkin əməllər ucbatından diz çöküb
Yalvar, yaxar insan edər bir gün gələr

Hər dəfə baş çəkməkdəyəm dərgahına
Qəbul məni, canan edər, bir gün gələr

Solmuş saralmış rəsmini təsvir edib
Qulluq gülə bağban edər, bir gün gələr

Uysan bu dünya malına, bir yol tapıb
Öz bildiyin şeytan edər, bir gün gələr

Çərxi-fələknən oynama, yoxsa səni
Dar torpağa ehsan edər, bir gün gələr

Dar gündə qoymaz Tanrı, hər bir insanın
Hər müşkülün asan edər, bir gün gələr

Vicdansız insanlar ölər, millət onun
Qəbrin söyər, nalan edər, bir gün gələr

Pul, parə bilməzdim ki qan qardaşların
Bir-birinə düşman edər, bir gün gələr

İşğaldan azad eyləyər torpağların
Şadlıq Azərbaycan edər bir gün gələr

Şeri Səfanın zövq verər, ümmid edir
Dillərdə xalq dastan edər, bir gün gələr

01.06.2020

Həzəc, məfAİlün fəUlün-2
Dilərsən hər nə məndən, gözüm üstə baş üstə
Əlimdən hər nə gəlsə bir altdan bir daş üstə

Mülayim olma könlüm, həmən görsən gözəllik
Məsəl vardır gəzərlər, ilanlar daşqaş üstə

Zamandan hər gedən an, qənimdir canlılarçün
Olur təslim cavanlıq, gələrkən yaş yaş üstə

Peşiman olma könlüm, ötən günlər qayıtmaz
Heyifsələnsən nə fayda, yığılmış kaş kaş üstə

Halal, vicdanlı kəsdən gəzərlər yan gədalər
Ölər mərdanə aslan, gələr çaqqal laş üstə

Vəsiyyətdir bu məndən, Səfaya ölsəm işdi
Oxu yasin şeirnən, məzarə bardaş üstə

04.06.2020

Çıx get aramızdan, kiş-kiş a Karona
Səndən edirik biz, xahiş a karona

Çarəndə tapılmır, acizdi səhiyyə
Görmüb belə bir dərd, keçmiş a karona

Təslim əgər olsan, rüşvət sənə qurban
İmzala bizimlə , saziş a karona

İnternetə baxsan, həm telvizor açsan
Səndən deyir hər bir, verliş a karona

Lənətlənərək lap, kovid adı altda
Çindən bizə paysan, bəxşiş a karona

Spirtlənir əllər, həm maskalanırsan
Sayəndə biz etdik, vərdiş a karona

Qorxutmaz əzizim, islanmışı leysan
Əsla bizə yaddır , təşviş a karona

Yazıq kasıb oğlu, nə ilə çörək alsın
Bağlandı əlindən, hər iş a korona

Meydan oxuyursan, dünyayə bir ucdan
Odlarə düçar ol, yan biş a karona

05.06.2020

Sabira! day nə yazım? axtarıram söz yoxdur
Qaçıb haqsızlıq əlindən, deyəsən düz yoxdur

Biz ki, vardıq biz idik, birliyimiz möhkəm idi
Daha bizdən ayırıblar, o bizi, biz yoxdur

Ataraq böhtanı şər qüvvələri, çox qınama
Hər nə hal var, özümüz eyləmişik, göz yoxdur

Vətən uğrunda döyüşmüşlərə hörmət budumu?
Ürəyi güllə görüb, göz kor olub diz yoxdur

Bizi əhv eylə Şəhid! yerdə qalıb qanın hələ
Qəbrinin üstə necə güllər atım? üz yoxdur

Həftənin yeddi günü dərd tıxırıq, qəm yeyirik
Nə bizə bəsdi deyən var, nədə pəhriz yoxdur

Tülkülər şadlıq edir, zənn edir aslanlar ölüb
Ulayır ermənilər, sanki "Mübariz" yoxdur

Səfa hazırdı tuta, şeri ilə düşmənə toy
Sözümüz güllədən əfzundu təcavüz yoxdur

12.06.2020

Səni yadlar taladı ey başı qovğalı vətən
Qarabağım sənə divanədi, sevdalı vətən

Yox idi ölkəmizin işvəreni, bəs dedilər
Səni kimlər de görüm satdı müəmmalı? vətən!

Ey oğul olma şəhid, tökmə qanı boş boşuna
Verilib ermənіyə, sən demə imzalı vətən

Haqq yerin tapmayanaycan, dilimiz hayqıracaq
Yoxsa mən sürmərəm öz ömrümü mənalı vətən

Bağlayıbdır qara yaylıq üzünə, yas tutaraq
Zülmətə qərq olunub, nur kimi simalı vətən

Hərə bu mülkdə öz meylini bir yarə salar
Sən gülümsən, sənə mən bülbülü-şeydalı vətən

16.06.2020

Könlümü heyran edib, bir nazənin göy gözlü qız
Sərvi qamət, incə belli, simadan ağ üzlü qız

Mən səni seyr eyləyib gizlincə vəsf etməkdəyəm
Sən məni tellər arasından süzürsən gizli qız

Bir gözəllik bəxş edib Allah sənə bil qədrini
Ey qılınc qaş, sarı saç, şalvarı dizsiz dizli qız

Mənəviyyatdan kasıb, zəngin birindən qaç çalış
Qəlbi saf, vicdanlı kəsnən ol tanış, ol sözlü qız

Var Səfanın təklifi, gəl vəslə yetməzlər kimi
Mən Azərbaycanlı oğlu səndə ol Təbrizli qız

21.06.2020

Ölmək də doğulmaq da pul ilə
Pul xərcləyirik hər üsul ilə

Sənlik deyil o, kofe snikers
İç köhnə çayı qənd, noğul ilə

Girdabi-qəmə batmamaq üçün
Dəstək tapırıq stimul ilə

Dünya düzələr bəlkə də onda
Həmsöhbət olar şahı qul ilə

Azdırmı atıb tərk eliyənlər
Fəxr etmə ana!, hər oğul ilə

Tədris olunur altı yaşından
Rüşvət bizə, məktəb, okul ilə

Dünyanı maşın tək sürən insan!
Çox oynama tormuzla, rul ilə

22.06.2020

Bu nə ardır, mədəniyyətdir axı lütləşirik?
Elmi təhsildən uzaq yan gəzirik, kütləşirik

Çox xeyirsizləri doğduq, toxumun əkdik biz
Sanki doldurmaq üçün kainatı cütləşirik

Yeyib içməkdən ibarətdi həyat bir çoxuna
Ciddi dünyanı zarafat sanırıq, şitləşirik

İşlədiblər bizi üç yüz manata it yerinə
Elə bil boyna qalustuk taxaraq itləşirik

Nə muğamnan aramız var, nə qəzəl dinləyirik
Ledi qaqayla, Rihanna baxırıq xitləşirik

Gəlirik qeyrətə hərdən eliyək haqqı tələb
Sonra təcridxanada ram ilə sakitləşirik

Peşəmiz çayxanada kart, damino, qeybətdir
Böylə bir yolla nə inkşaf axı, sabitləşirik

Pozulub başdan ayağa psixologiyamız
Görüb alçaqları, nadanları banditləşirik

Arizu etdi Səfa kaş bu cavan yaşda ölə
Nə rak olduq, nə də serroz, nə meningitləşirik

24.06.2020

Yar nə qədər sağdı canım, sağsalamat qədrimi bil
Azdı ömür müddətimiz, heçdir həyat qədrimi bil

Aşiqi- zarəm sən üçün, yoxmu vəfa səndə gülüm?
Yad elə hərdən məni bir, ol narahat qədrimi bil

Nəfsinə hakimlik elə, təkcə sənə mən qalaram
Az məni pul-parəyə var dövlətə sat qədrimi bil

Sənsiz olan hər günümün, kabusu məhv etdi məni
Rəhm elə nolar mənə yar, dadıma çat qədrimi bil

Nazını illərlə çəkib, oxşamışam telllərini
Bir dəfə də sən gözəlim, başımı qat qədrimi bil

Torpağın altında qonaq olsam əgər, mehmanım ol
Qəbrimin üstündə çıxan, kol-kosu at qədrimi bil

Mən gecə gündüz keşiyin, çəkmək üçün əsgərinəm
Rahət ol ey gül oyağam, sən uyu yat qədrimi bil

Yadə vəfasız! salaraq, sənlə keçən hər günümü
Sutkaların xatirinə, bircə saat qədrimi bil

25.06.2020

Şeri bağının bülbülüdür Tofiq Həsənli
Haqq şairi, haqqın dilidir Tofiq Həsənli

Şerin oxuyan bilmədi keçdi nə təhər vaxt
Öz milləti üçün ayırıbdır bu qədər vaxt
Tənqid edib alçağları, yaltağları hər vaxt
Sabir, Babanın stilidir Tofiq Həsənli

Həm dindarı həm şeytanı təsvir eləyibdir
Tərsinə gedən dövranı təsvir eləyibdir
Nəzm ilə Azərbaycanı təsvir eləyibdir
Xalqın iç üzü daxilidir Tofiq Həsənli

Ruhən qocalıb baxma ki, vardır yaşı əlli
Çəkmiş başı bir sevgili afətdən əməlli
Siması edir, arifə, fərzanəyə bəlli
Dərdin özüdür nisgilidir Tofiq Həsənli

Açdı gözünü Lənkəran adlı bu məkanə
Şükr Allaha xəlq onu, xalqa zəmanə
Doğmur hər ana böylə sənətkarı cahana
Əsrin doğulan tək ilidir Tofiq Həsənli

Xoşbəxtdi o insanki salıb tarixə bir iz
Ustad! gedirəm, mən sənə qurban xudahafiz
Xalq sorsa əgər ki, vətənin kimlərisiz siz
Məhbubu Səfa, sevgilidir Tofiq Həsənli

27.06.2020

Dərdimiz ağırdı ey dost, gəl çəkək tarazuda?
Mən vətən xalq dərdini, sən vari-dövlət dərdini

Qanına qəltan olub, ölmüş qırılmışlardanam
Torpağımdan güc bəla ilə atılmışlardanam

Mən didərgin düşmüşəm, yurdu satılmışlardanam
Gəl el oğlu birgə mənnən çək bu qeyrət dərdini

Biz axı söz atmadıq ki, özgələr qeysusuna
Qız, gəlinlərmiz əsirdir erməni casusuna
Göz dikibdir ehtiraslanmış yağı, namusuna
Hansı üznən bəs çəkirsən, eyşi-işrət dərdini

Cürbəcür dərdlər görübdür canımız, əzm etmişəm
Xeyli dərdə süfrələr açdırmışam bəzm etmişəm
Allahın göndərdiyi hər dərdini həzm etmişəm
Yükləyib gəzdirmədim, çiynimdə qismət dərdini

Yüz polis var ətrafın sanki xəlifəndir sənin
Bizlərə vəd etdiyin hər söz lətifəndir sənin
Xalqa xidmət eyləmək çünki, vəzifəndir sənin
Ol cəmiyyəyət içrə ki, öyrən cəmiyyət dərdini

Ayrılıb dərdində yanmaqdan dul olmaq yaxşıdır
Mərhəmətsiz Padişahdansa qul olmaq yaxşıdır
Gözləri ac zadəgandan yoxsul olmaq yaxşıdır
Qorxudan axşam-səhər eylər qənimət dərdini

Ey Xuda lütf eyləyib verdin mənə qəm zülmünü
Sən Səfaya vermisən ki, çəksin aləm zülmünü
Gəlməmiş məhşər günü, verdin cəhənnəm zülmünü
Vermə sən bari, çəkə öldükdə cənnət dərdini

29.06.2020

Fəqir haqqın yeyən kəslər utansın
Pula qəddin əyən kəslər utansın

Xuda xəlq etdiyi dünyadə yahu!
Biraz mən-mən deyən kəslər utansın

Vətən qeyrətdi, namusdu toxunmaz
Bu meyara dəyən kəslər utansın

Salıb səhv dostu düşmənlə inandıq
Yalandan don geyən kəslər utansın

Əzazil, güclüdən qorxub köpək tək
Zəif, aciz döyən kəslər utansın

Səfa haqqı sevənlərçün de gəlsin
Sözündən inciyən kəslər utansın

05.07.2020

İlanın qarəsinə ağına lənət
Eləcə erməni daşnağına lənət

Ataraq gülləni alçaq necə qıydın
Basan o çaxmağı barmağına lənət

Elə millətdi ki, çiynində mələklər
Eləyir həm solu həm sağına lənət

Tökəsən stəkana erməni qanın
Yazasan erməni torpağına lənət

Tüpürüm himninə və içdiyin anda
Qırmızı, göy, sarı bayrağına lənət

Qarabağ cənnətimiz adlı məkanda
Salınan bağçasına bağına lənət

Məsələ həllini tapmır otuz ildir
Atətə, Nato yığıncağına lənət

Elə əmr ölkəmiz hazırdı döyüşsün
Çəkilən vardısa qorxağına lənət

Ta Qarabağı alınmazsa Səfanın
Gününün xoş keçən hər çağına lənət

24.07.2020

Addımı atmağımızdır Fizika
Oyanıb - yatmağımızdır Fizika

Maddi obyektə tərəf addım ilə
Yürüyüb çatmağımızdır Fizika

Arximed qanununun isbatıdı
Üzməsək batmağımızdır Fizika

Biz fiziklər buna öyrəncəliyik
Qəm yükün dartmağımızdır Fizika

Zamanın çərxi mühərrik kimidir
Onu fırlatmağımızdır Fizika

Suyu içmək özü bir möcüzədir
Onu qaynatmağımızdır Fizika

Çətin elmə veririk sadə izah
İncəlik qatmağımızdır Fizika

İki lingin bu tarazlıq halıdır
Qolu sallatmağımızdır Fizika

Səfa hərdən düşünür dünyanın
Nəbzini tutmağımızdır Fizika

01.08.2020

Kişi sanmışdım həyatı, kürəyimdən vurdu
Kürəyə atdığı zərbə, ürəyimdən vurdu

Davranır mənlə fələk, körpə uşağ tək sanki
Nəyə ki mən əl uzatdım, biləyimdən vurdu

Dost dedim bağbana, qısqandı bizim sevgimizi
Tikanı məhv eləməkdən, çiçəyimdən vurdu

Kamana qoydu oxun, çəkdi ədalətsiz həyat
Haqqa düz baxdığım üçün, bəbəyimdən vurdu

İldırım vurmadı on mərtəbəli zalım evin
Arada zalıma hürmüş köpəyimdən vurdu

Xoş təbəssüm gətirə bilmədi qəmgin üzümə
Qıdığın zalım həyat, çox göbəyimdən vurdu

Neyəmişdim?, çörəyə bais olan qonşumuzun
Toyuğu hər dəfə dimdik çörəyimdən vurdu

Vətənin dərdini çəkməkçün anam doğdu məni
Etiraz eylədim, ancaq bələyimdən vurdu

05.08.2020

Sahibin yoxmu sənin ay yiyəsiz tərbiyəsiz?
Aparırsan özünü tərbiyəsiz, tərbiyəsiz

Ölkəmiz əndamı çöldə qalana hörmət edir
Qadağa yoxdu, yaşa maniyəsiz, tərbiyəsiz

Nə deyim mən evin ağsaqqalı, ağbirçəyinə
Buraxıblar dolaşırsan ciyəsiz tərbiyəsiz!

Çoxu oldu can alan gözlərinin qurbanı
Kor olaydı o gözün kaş tiyəsiz tərbiyəsiz

Milli mentaltetə sığmır yaşayış davranışın
Hər sözün çərçivəsiz, haşiyəsiz, tərbiyəsiz!

Ey cavanlar! elin əxlaqlısına kim sataşar
Yaxasından yapışarsız deyəsiz tərbiyəsiz

Səfanın qafiyəsi vermir aman, təhqir edə
Şeirə uymur adın qafiyəsiz tərbiyəsiz!

19.08.2020

Vaxtımız az, arzumuz çox
Pul da yoxdur, borcumuz çox

Çox siyasətdən danışma
İş verəndir qonşumuz çox

Biz nəyə haqq söyləmişdik
Çıxdı yanlış doğrumuz çox

Gəncliyə təbliğ olundu
Adı çıxmış şortumuz çox

Haqq yeməkdən qorxmadıq heç
Vardı arvad qorxumuz çox

"Çox şükür Allah" deyən az
Baxma vardır ruzumuz çox

Xətrimiz incəldi qıl tək
Həssas oldu duyğumuz çox

Bilmədik, bildik danışdıq
Dəxlisizdir mövzumuz çox

17.09.2020

Kaş öləydim bu cavan yaşda gedəydim
Həkk olaydım neçə yaddaşda gedəydim

Kaş cəhalət quyusundan çıxarardım
Neçə cahil, adı ən başda gedəydim

Xalqımın dərdini min ahla çəkincən
Doğulaydım daş ürək daş da gedəydim

Məzarım kaş can alan çöhrən olaydı
O həmin gözdə, həmin qaşda gedəydim

22.09.2020

Düşdüyüm abu-hava təsir edib
Millətin dərdi məni şair edib

Kasıbın görmədiyi qır-qızılı
Məmur öz toplanına zəncir edib

Ölkə gənc nəsli pul ucbatından
Qatı qatil, iki üz, cibgir edib

Zamanın sahibi bir gün soracaq
Bunu hansı qan içən vampir edib?

Meydanı aldı ələ nakişilər
Meşəni çaqqala təslim şir edib

Yuxudur təkcə fəqirin dostu
Ona xoş gün yuxular təsvir edib

Səfa ustadlara bax, qoy qələmi
Əldə nə Seyyid edib? Sabir edib?

23.09.2020

Görüm hər vaxt üzün gülsün Azərbaycan
Bütün düşmənlərin ölsün Azərbaycan

Xilas etsin vətən torpağların əsgər
Nəhayət göz yaşın silsin Azərbaycan

Səni düşmənlərə kim satdı onlarnan
Xudavəndi Kərim bilsin Azərbaycan!

Xəyallar gerçək olsun qoy deyək bir gün
Qarabağdan səsin gəlsin Azərbaycan

30.09.2020

Azəribaycanı müzəffər görək
Məğlub olubdur xeyirə şər görək

Üzdə sevinc, əldə silah, dildəsə
"Ya Qarabağa ya ölüm" əzbər görək

Ey kaş, olaydıq Qarabağ mehmanı
Cənnətə tay guşeyi-dilbər görək

Abad ola məscidi-viranələr
Hər qapıda Allahu Əkbər görək

İlham ilə azad edək torpağı
Gorda rahatdır ulu Heydər görək

Qır fələyin çərxini Allah! nolar
Bizlərə xoş günləri göstər görək

Ağlamasınlar analar bir daha
Sağ qayıda hər gedən əsgər görək

Sülh quşu ağuşa ala ölkəmi
Bir də nə dava nə də səngər görək

Ordumuza dəstək olaq hər zaman
Hər kəsi həmrəy və bərabər görək

02.10.2020

Çevrilib gerçəyə artıq, otuz illik nağılım
Gözün aydın, qayıdıbsan yenidən Cəbrayılım!

Fərqi yoxdur, talışıq, ləzgi tatıq ya avarıq
Qarabağdan yağı düşmanı zopaynan qovarıq

Ordumuz güclüdü çox, bil deyil əvvəlki daha
Keçirər ermənini bayrağ əvəznə silaha

Azəri övladıyıq, erməni! qorxaq deyilik
Rəhmimiz vardı bizim siz kimi alçaq deyilik

Atmarıq gülləni arvad, uşağa vəhşi kimi
Sizi tək olmarıq heçvaxtı təcavüz qənimi

Yalvarıb təslim olarsız elə axırda bizə
Xocalı faciəsin keçmərik heçvaxtı sizə

Otuz il oynadıq ATƏT çalan hər bir düdüyə
Daha bəsdir dirənibdir bıçaq artıq sümüyə

Qorxudan sizləri atəş səsi, haqqın səsidir
Qarnı süngüylə yarılmış qadının naləsidir

Mərd deyil sizdəkilər, əhli-Yezidin biridir
Ölən hər bir şəhidim yüz sağınızdan diridir

Kaş sənin övladını dəfn eləyərdik dərinə
İki yaşlı kiçicik Zəhra balamın yerinə

Qarabağdan qovulan qaçqını qaçmışlarıyıq
Qəddar əsrin elə doxsanda göz açmışlarıyıq

Boya çatdıq, böyüdük day, alarıq canınızı
BTR tankına benzin tökərik qanınızı

Düşmənim Azəribaycanı görüb sarsılacaq
Köksünə dalğalanan bayrağımız sancılacaq

04.10.2020

Ermənistan! dağılıb lap Yerəvansız qalasan
Ay səni Rusiyasız, dostun İransız qalasan

Dığa övladların ilə öyünüb eyləmə çox
Kəsərik nəslinizi axırı "yansız" qalasan

Bir də gəzsən ana torpağımın üstündə əgər
Elə allam ki, nişangahə dabansız qalasan

İqtisadiyyatını çökdürərik, bir savaşa
Ciblərin tam boşalar hətta siçansız qalasan

Necə davrandız əsir qızlarımıznan o zaman
Dalı şampan tərəfə sonda tumansız qalasan

Möhkəm ol Azəribaycan gələn hər güllələrə
Yenə bilməz yağı düşmən səni cansız *QALASAN*

Qarabağ! qurban olum xar gülünə, kol-kosuna
Deyiləm razı gül üstündə tikansız qalasan

Etiqadın hanı bəs Həzrəti İsa dininə
Səndən üz Tanrı çevirsin, yaradansız qalasan

Qarabağ torpağı çoxdan susuyub qanın üçün
Süzülüb torpağa son damlası qansız qalasan

Vətəni sevmək özü ey Səfa imandandı
Kəc baxarsan vətənə dinsiz, imansız qalasan

08.10.2020

Düşmənin çatdı daha, əcəli Marş irəli
Vətən uğrunda döyüş, irəli marş irəli

Döyüşən vaxtı denən, ya Xudavəndi Kərim
Ya peyəmbər cəddi, ya Əli marş irəli

Azəri əsgərinə, təbiət qorxusu yox
Sənə neynər soyuğu, xəzəli marş irəli

Vətənin əmridi bu, əmridən çıxma saqın
De! baş üstə igidim, de bəli marş irəli

Çox məhəbbətdən uca, vətəni tutdun igid!
Budu eşqin ən əsas, təməli marş irəli

Oxu möhkəm səs ilə, o gözəl himnimizi
Oxu qəflətdən oyat əfəli marş irəli

Ümidi tək sənədir, indi birlikdə deyir
Obamın mərd oğulu, gözəli "marş irəli"

Vicdanındır o sənin, sinən üstündə qoyub
Bayrağ andın içərək, bas əli marş irəli

Sən vətənçün döyüşüb, necə tarix yazdın
Yazım o tarix üçün, qəzəli marş irəli

11.10.2020

Vurarıq düşməni dağdan
Ölmərik bir də nahağdan
İnşəAllah Qarabağdan
Xoş xəbərlər duyarıq biz
Qanı qannan yuyarıq biz

Hansısa xarici qonşu
Gələ bilməz daha qorxu
Haqqımızdır deyərik bu
Aləm içrə yayarıq biz
Qanı qannan yuyarıq biz

Ümid olmağçün əzizim
İgid olmağçün əzizim
Şəhid olmağçün əzizim
Oyanıb gün sayarıq biz

Mənim odlar diyarım var
Bu diyarda Polad, İlqar
Mərd Mübarizlərə oxşar
Döyüşüb ad qoyarıq biz

Ruzisi evdə çox olsun
Şəhid övladı tox olsun
Eybi yox bizdə yox olsun
Bir tikəynən doyarıq biz
Qanı qannan yuyarıq biz

Qaçın ey erməni! məndən
Xoşunuznan bu vətəndən
Getməsəz, başı bədəndən
Dərisiynən soyarıq biz
Qanı qannan yuyarıq biz

Özgə bayrağ taxan olsa
Hələ minnət qaxan olsa
Vətənə kəc baxan olsa
Gözün əlnən oyarıq biz

16.10.2020

Çeviriblər yasa əyləncəmizi
Etdilər Suriya tək Gəncəmizi
Yavrucuq körpələrin ahına bax
Ölkələr duymadı işgəncəmizi

Yoxdu tay ermənіyə aləmdə
Terroristsiz qan içən görkəmdə
Atanız qeyrətə gəlmir çoxdan
Ananız fahişədir bəlkəm də

Bu nə dəhşətdi meyidlər qoxmuş
Bizləri istəməyənlər çoxmuş
Müslümanlar qırılır, göz yumulur
Demə dünyada ədalət yoxmuş

Bəsdir artıq dayanın rus dığası!
Bəllidir kim gedəsi kim qalası
Yeyib içdiz otuz il indi sizə
Haram olsun Qarabağın havası

Qarabağ aldı düyün ermənidən
Alarıq hansısa gün ermənidən
Baş komandan! demə it tək qovuruq

İt sədaqətlidi çün ermənidən

17.10.2020

Ağrımız bir, dərdimiz bir
Haqq yolunda mərdimiz bir

Yaslara çevrilməsin toy
Ey Azərbaycanlı zat, soy!
Birləşək gəl, olmasın qoy
Yerlə-göynən, yurdumuz bir

Sussun artıq əhli-kafir
Ol Rəsulullaha xatir
Ey müsəlmanlar olaq bir
Tanrımız bir, virdimiz bir

Geri bir addım çəkilməz
Dik tutar başın əzilməz
Düşmənə heçvaxt əyilməz
Vardı məğrur ordumuz bir

Vird- zikr

20.10.2020

Biz savaş meydanlarında xeyli canlar vermişik
Haqqın uğrunda şəhid olmuş cavanlar vermişik

Asimanə sovrulub oldu buxar göz yaşımız
Ağlamaqdan dağlara, çənlər, dumanlar vermişik

Çox ümid etdik ki, dünya birliyi sahib çıxar
Bu otuz ildə demə, boş-boş zamanlar vermişik

Boş verilmiş vəd, yalanlarla havamız korlanıb
Çox yalanlar udmuşuq, eynən yalanlar vermişik

Eşqə bax, övladların dəfn eylədikcən anneler
Fəxr edirlər yurda ölməz qəhrəmanlar vermişik

Şanlı tarix yazmaq üçün, xalqımız candan keçib
Məqsədə yetməkdən ötrü imtahanlar vermişik

Ey vətən , sən kimləri dost bilmisən xain çıxıb
Oxlayırlar, kimlərə bir vaxt kamanlar vermişik?

Qorxumuz yox əl-yalın düşmənlər ilə üz-üzə
Könlümüzdən vur deyib, qəlblər nişanlar vermişik

Ey Mübariz, Ey Polad rahat uyu bundan belə
Kafirin zəbt etdiyi yerdən azanlar vermişik

22.10.2020

Nə günah eylədilər ki, günahı olmuyan öldü
Silah atdı yağı düşman, silahı olmuyan öldü

Nə eşitmir nə verir hay, necə nankordu bu dünya
Günəş, ay tək gözü çıxsın ki, deyim kordu bu dünya

Yağışa əmr elə Allah, buludu bir yana yığsın
Torpağ üstə tökülən qanlara göz yaşları yağsın

Kef çəkib gəzmə bu torpağların üstündə dayan bir
Torpağ altında yatan şanlı şəhidlərdən utan bir

Erməni! aldığınız abu-hava çöllərə təhqir
Gətirən yoxdu dilə, çünki adın dillərə təhqir

Gücü ön cəbhədə göstərməyinizçün ürək olsun
Buda şərtdir adamın düşməni erkək gərək olsun

Sizdən üstündü mənimçün, atılan bircə tük hətta
Qanınız da xarab hətta, südünüz də çürük hətta

Fələyin çərxi sınaydı, mayasın qatdığı yerdə
Daş düşəydi nənəniznən babanız yatdığı yerdə

Seyr edirlər Qarabağda, bəmbəyaz xeyli göyərçin
Öldürülmüş küçücük körpələrin ruhudu yəqin

İntiqamın alacaq, qalmayacaq birdənə məskən
Azəribaycanımın əsgərinə qurban olum mən

30.10.2020

Şuşam azad olunub qalmadı daşnağlarda
Bülbül öz xarı üçün nəğmə oxur bağlarda
Ədəbiyyat oyanır əks-sədadən sanki
Natəvanın qəzəlin Xan oxuyur dağlarda

08.11.2020

Ermənilər leşini qoyub qaçıblar
Birini alıb beşini qoyub qaçıblar

14.12.2020

Nəfsinə aldanmış olan qullarıq
Şah cibinə xırdalanan pullarıq

Ad olaraq faili muxtarlarıq
Lakin idarə olunan rullarıq

Ehtiras üstündə əkib biçdilər
Tərif edək ənticə məhsullarıq

Haqqımızı tapdalayıb mindilər
Eşşəkin üstündəki boş çullarıq

Saf deyilik saf su da bizdən qaçır
Gör necə çirkab dolu məhlullarıq

Haqq! nə olar eyləmə rüsvay bizi
Həşrə qədər hər kəsə məchullarıq

Tıxdığımız hər haramı çəkdilər
Gəlmədi tarazıya gonbullarıq

Var bu qədər bizdə maaş qorxusu
Söysə müdir işçini qəbullarıq

Halımıza min şükür olsun yenə
Biz kasıbıq gər halı məqbullarıq

11.04.2021

Əyri yola baş vurub, addımı düz qoymadıq
Tanrı ilə üz-üzə gəlməyə üz qoymadıq

Ölkəni ifşa edib, torpağın uğrundasa
Bir dənə qol, bir ayağ bir dənə göz qoymadıq

Vay o günə qonşuda, olsa boşanmış qadın
Ailəsi barədə birdənə söz qoymadıq

Altımıza pul-para qoymuşuq illər boyu
Yaxşı adamlar kimi, tarixə iz qoymadıq

Övlad oxutdurmuşuq, rüşvətin hesabına
Ay kişi bu milləti pis günə biz qoymadıq?

Hər dəfə mövlud günü, 100 yaşamaq istədik
Bircə dəfə səcdəyə, getməyə diz qoymadıq

Hər şeyi acgözləşib oğramışıq Tanrıdan
Dağ meşələr zəbt edib, çay nə dəniz qoymadıq

12.04.2021

Bu şairlik mənə heçnə vermədi
Qələmlə varağa yazmaq öyrədib
Sənli günlərində yaratmaq eşqi
Sənsizlik gələndə azmaq öyrədib

Saray şairləri deyilik şükür
Yazılan təriflər dönür pul olur
Əynimə baxaraq qınama məni
Haqqı təbliğ edənlər yoxsul olur

Baharda bülbüllər oxumasalar
Güllərin üstündə ətir də olmaz
Ana təbiəti bir qıza bənzət
Gözəllik olmasa şeir də olmaz

Yaradan söz ilə yaradıb bizi
Sözdən ehtiyat et könüllər dəlib
Qalanda itilik kəsərliyinə
Qılıncın özü də sözdən düzəlib

Azərbaycanımın mərd övladıyam
Ölkəmin talış torpağındanam mən
Uslubum satira məhsulu kimi
Sabirin, Pünhanın bağındanam mən

Mühəndis-şairəm böyük çıxmasın
Yazıram şeirin əntiqəsin də
Həyata yönəlir baxışlarımız
Fizika qanunu çərçivəsində

13.04.2021

Lənkəran rayonu, Yuxarı-Nüvədi kəndinin şəhidi Baş Leytinant Vüsal Kazımovun əziz ruhuna ərmağan etdiyim acizanə şeir:

Çox ümid eylədim sağ qayıdarsan
Həsrətin dağların ümidlə çapdım
Tabutu gec gələn şəhid Vüsalı
Məzarda axtarıb yuxuda tapdım

Kürən saç, yaşıl göz arıq oğlandın
Səmimi simanı hamı sevirdi
Bəlkə nur üzünü qısqandığıyçün
Mələklər əzrayıl donuna girdi

Tabutu millətin çiynində getdi
Rəhmətlər oxunub çatdı dərgaha
Şəhid yanında şəhid gömmüşük
Mais Mirzəcanov tək deyil daha

Namus ləkəsini silməyə getdin
Açdığın silahdan düşmən gəbərib
Qarabağ torpağında izin görsənir
Qan tökdüyün yerdə güllər cücərib

Eyni parta arxasında günümüz keçib
O vaxt anlamazdıq nə dərd nə kini
Səni görmək üçün dualar etdim
Gəl ey yuxularımın özəl sakini

Bir gün hamının qapısı döyülər
Çağırıb deyərlər oyan dünyadan
Bundan artıq nə gözləyəsən ki
Körpəni atasız qoyan dünyadan

15.04.2021

Yaşadığımı da yaşamışam, belə pis çıxmasın
Səndən bir qorxum yoxdur ki, xətrimə dəyə bilərsən
Ünvanımı bilirsən ey əziz qonağım Əzrayıl
Ürəyin haçan istəyir qapımı döyə bilərsən

Çox yaşamayım qoy günahlarımın sayı artmasın
Ölüm mələyim gəl çıx ki, qış ömrüm çönər yaz olar
Cənnətə düşmək ümidimi əlimdən alma
Nə qədər az yaşasam bir o qədər cəzam az olar

Aclıq, səfalət, evsizlik, xəstələr hansını deyim
Olanlara göz yummaq istəmirəm sırtıq deyiləm
Nə olsun evdə körpəm var, gənc yaşıma üzülməyin
Qarabağda şəhid olan əsgərdən artıq deyiləm

İntiharmı etməyimi istəyirsən bəlkə, əsla!
Adıma yaraşmayan bir sürü şayələr yığılar
Son şikayətim sənədir Allah, yardım et bəndənə
Niyə öldürmürsən mən olmasam dünyamı dağılar?

18.04.2021

Ey kasıb dərd eləmə döz-döz-döz
Batma borc içrə çalış üz-üz-üz

Almayırsan sosial yardımını
Bir uçuq daxmana var göz-göz-göz

Vermişik torpağa yüzlərlə şəhid
Həya et vurma arağ yüz-yüz-yüz

Üzümüz qalmadı üz verməkdən
Yetənə göstəririk üz-üz-üz

Yalan hökm etdiyi dövranda adam
Sürə bilmir həyatın düz-düz-düz

Bir qarınlıq çörəyin möhtacıyıq
Deyilik biz daha o biz-biz-biz

Nə dedik əks-sədasın duyduq
Daşa təsir eləməz söz-söz-söz

Tanrını sən çağırarkən gurnan
Deyirik bəndəsinə siz-siz-siz

Kasıb övladlarınındır bu vətən
Çökdürüb ermənіyə diz-diz-diz

Haqqımızdır danışaq ey məmur
Az gözün süz, dodağın büz-büz-büz

Torpağ üstündə şəhid qanları var
Qarabağda dolaş az gəz-gəz-gəz

26.04.2021

Getdi vətən naminə, düşməni məhv etməyə
Səpnəkəran kəndimin, mərd, igid övladları

Ermənilər xar olub, təsirinizdən sizin
Həm boyu bəstəsi, həm irinizdən sizin
Öylə cəsarətlisiz, hər birinizdən sizin
Yazsa da azdır yenə, söz-sənət ustadları

Canı sağ olsun Tural, siz kimi qərdeşlərin
Cəbrayıl uğrunda var, avtomat atəşlərin
Ermənіnin bir-bə-bir ,salmısınız leşlərin
İndi narahat yatır, gorbagor əjdadları

Düşmənin ön xəttinə, səd qoyub əngəl qoyub
Cəmisi qırx dörd günə tarixi cədvəl qoyub

Dünyanı başdan başa matu- məəttəl qoyub
Ordumuzun var özəl taktiki-icadları
Əsgərin hesabına, Azərbaycan udub
Vardı Qədirtək oğul, torpağ üçün can qoyub
Od qoyub ağlatmısız ermənilər yas tutub
Ərşə çəkilməkdədir ahları, fəryadları

Qəlpə alıb Şəhriyar, qazi kimi yüksəlib
Elnurumuz var hələ, mina canından dəlib
Gülləsinə düşmənin kimlər əgər tuş gəlib
Xaliqi-Sübhan ola, hər zaman imdadları

Gördü Şuşa, Cəbrayıl kətçimiz əsgər Riyad
Sağsalamat yurduna, döndü bizi etdi şad
Yerdə şəhid qanları, qalmadı olduq azad
Təslim olub, yalvarıb erməni cəlladları

Lənkəranım nur saçır, mərd yaşayan ünvana
Saysız, hesabsız şəhid, basdırılıb yan-yana
Hansı oğullar doğub, gör analar dövrana
Dildə dönər dastana , hər birinin adları

Taleh ilə Elxanın, Ağdərə olmuş yeri
Keçdilər onlar neçə, səngər ilə bunkeri
Kimdə talış qanı var, atmadı addım geri
Üstlərinə düşmənin ,gəlsədə həştadları

31.07.2021

Qəm də əyər boynunu məğrur kişinin fəhminə

Fərz edirəm hirsli baxışlarda nəvaziş yatır
Qurban olum öz atamın üzdə olan zəhminə

Ey füqəra səbr elə, əcrin verilər bir zaman
Allahı qəbul eliyən şübhə edər rəhminə?

16.09.2021

Xəzan olmuş bahar ömrüm
Mənim bietibar ömrüm

Nə çox cövrü-cəfa etdi
Bu ölməz sevgimiz bitdi
Peşiman olmadım getdi
Sənin uğrunda yar ömrüm

Açım söhbət hayanlardan
Gözəl sözlər duyanlardan
Özün xoşbəxt sayanlardan
Olubdur ixtisar ömrüm

Xilas olmaq da heç bilmir
Dilə ölmək də xoş gəlmir
Cism ölməklə ruh ölmür
İki aləmdə var ömrüm

20.11.2021

Dərsi-üsuli-cədidi neynirəm
Ənənəvi yaxşı idi neynirəm

Bəsdir ay arvad bu uşaq bir bəla
Pir, ocaqa qoyma onu bir daha
Dərs oxumaq canda ola əvvəla
Molla, Axundu, seyidi neynirəm

Dərs oxumur guya ki, vardır başı
Əqli uşaq baxma ki çoxdur yaşı
Övlad odur elmi tuta yaddaşı
Yoxsa zəfərsiz igidi neynirəm

Kim çıxarıb onlayn olsun zəlil
Etdi o şagirdləri başdan əlil

Ölkədə təhsil düzələn şey deyil
Kəsmişəm artıq ümidi neynirəm

dərsi-üsuli-cədid: yeni dərs üsulu(kurikulum)

22.11.2021

Tanrıdan sonra insanı iki ad yetişdirir, bu iki ad cəmiyyətin və xalqın formalaşması sütünudur. Biri valideyn, digəri isə müəllim. Mən deyərdim, insan həyatında vicdandan sonra ən uca zirvədə təhsili dayanır. Bu təhsili bizə valideyn kimi əziz müəllimlərimizdən alırıq. Hər şagird, tələbə müəllimindən öyrənərək məntiqi təfəkkürünü inkşaf etdirib öz həyat yolunun xəritəsini qurmuş olur. Hər şagirdin borcudur ki, ona dərs verən müəllimini valideyni kimi yad etsin.. Mənim həyatımda böyük rol oynayan müəllimlərdən biri də Lənkəran rayonu şəhid Möhübbət Həmzəyev adına Səpnəkəran kənd orta məktəbinin dil-ədəbiyyat müəllimi Şirvan müəllimdir. Mənim ədəbiyyat ruhlu olduğum bilavasitə bu şəxsə bağlıdır. Danışdığı hər bir cümləsi, əsl Azərbaycan dilinin qramatik normalarına, və ədəbiyyatın məhz özünə siraət edir. Necə sevməyim öz müəllimimi!?, Allahdan müəllimimə can sağlığı uzun ömür arzulayıram, və onu rəcəz bəhrində olan şeirimlə hörmətlə anıram🌹❤□

Öyrənmişik biz elmini
Xoş halıma söz elmini
Yəni mənə öz elmini
Şirvan müəllim öyrədib

Dahi Klassik şairi
Seyyid Əzim tək mahiri
Mirzə Ələkbər Sabiri
Şirvan müəllim öyrədib

Vacib məqamın təhsilin
Həm nöqtəsin həm vergülün
Düzgün Azərbaycan dilin

Şirvan müəllim öyrədib

Danmaz bunu şagird Səfa
Nitq hissəsi qoşma, nida
Bəhri-əruz, vəzni-heca
Şirvan müəllim öyrədib

22.11.2021

Döyüşüb şövq ilə ön cəbhədə əsgərlərimiz
Şükür Allah ki, çatıb məqsədə əsgərlərimiz

Mərd, igiddir buraxıb eyləməyib düşmənini
Bircə addım yaxın heç sərhədə əsgərlərimiz

Biz maşın, mənzili almaqdan ötür növbədəyik
Vətən uğrunda durub növbədə əsgərlərimiz

Bu kino filmi deyil hərbi döyüş taktikasın
Göstərib əsli real səhnədə əsgərlərimiz

Azad etmiş Qarabağında günəş çıxdıqcan
Dincəlir ləzzət ilə kölgədə əsgərlərimiz

Ordunu ordu edən cəsurürək əsgəridir
Olmalı and yerimiz bəlkə də əsgərlərimiz

Tək Səfa onları yad eyləməyir çoxdu sayı
Olmasınlar narahat zərrə də əsgərlərimiz

13.01.2022

Formalaşmazsa beyinlərdə əgər Milli şüur
Taparıq yoxsa ki, hər işdə qüsur içrə qüsur

Zəhrimar damcısı yağdırmağa başlatdı bəniz
Yırtılıbdır üzümüz zərrə qədər qalmadı nur

Cır təfəkkür kitabın, vəhşi təbiətdən oxu
Harda gördünsə əgər zalımı öp, məzlumu vur

Mənəviyyatımı qarnım kimi ac saxlamışam
Pulumu ver, yeri gəlsə başımın üstdə otur

Bu qədər zülmə biz üsyankar olub heç demədik
Yetər artıq bu məşəqqət ,yetər artıq daha dur

Edir hazırda cəmiyyət iki mövqeydə çıxış
Kimi əşyası, kimi elmi ilə duydu qurur

Bu qaranlıq dolu zülmətdə ümid eyləyirəm
Bir ədalət günəşi kaş ola dəhr içrə zühur

18.04.2022

Çəkər hey dərdi-qəm-qüssə
Yar aşiqdən əgər küssə

O nə dilbərdi?, naz etməz
Cahandan eşqi raz etməz
Sevən yar etiraz etməz
Qılınc qaşlar başın kəssə

Bu cür şey harda görsənmiş?
Dünən loğmanlar öyrənmiş
Sənin qəlbində gizlənmiş
Mənə məxsus olan hissə

Deyil kim, kimsədən üstün
Zaman qədrin bilək düzgün
Ömürdəndir gedən hər gün
Düşər yarpağ külək əssə

05.08.2022

Sarğacda olur hasil, induksiya qanunu
Dostum nədir öyrən bil, induksiya qanunu

Bu kimyəvi birləşmə, göydənmi yerə qopmuş
Cəzb etməyə malikdir, maqnit dəmiri qapmış
Tətbiqi Ceymsindi, ancaq Faradey tapmış
Düsturnan edib təhlil, induksiya qanunu

Beynən(B) olur işarə, vektor oxu tək zəngin
Gərginlik haşa(H) bağlı , öz sahəsi var gərgin
Qoynunda alıb elmi, çoxdandı olub yəqin
İstəklərinə nail, induksiya qanunu

Bir naqilimiz olsun, təcrübə üçün fürsət
Ondan cərəyan keçsə, ətrafa verər qüvvət
Mütləqdi ki bir yerdə, bunlar yaradır vəhdət
Maqnit gəmidir, sahil induksiya qanunu

İnduksiya olmazsa, işlərmi mühərriklər?
İnduksiyasız bir iş, hardan tapa texniklər?
İstehsal olunmazdı, heç adi rubilniklər
Çox şeylər edir təşkil, induksia qanunu

Əlbəttə ziyandan çox, elmin bizə var xeyri
Kim elmsiz insandı, yollar qət edər əyri
Gənclər oxusun kaş ki, dərk etmək üçün şeyri
İdrak eləməz cahil induksiya qanunu

Yəqin nəsə anlarlar, qeyd etdiyin izahdan
Elmində Səfa bərk dur, düşmə hələ iştahdan
Şair və mühəndissən, söz yaz sənə Allahdan
Bir halda olub şamil induksiya qanunu

08.08.2022

Nə olar?, gördüyümün dörddə birin yazsam əgər
Qoyubən acını bir yanə şirin yazsam əgər

Yazıram məmura gəl, kar eləmir heç sənədim
Çernilim var, kağıza yoxdu pulum bəs nə edim
Eşidərlərmi məni, cəhd eləyim yoxsa gedim?
Onların şerim ilə daş-dəmirin yazsam əgər

Çəkirəm millətimin hər dəfə dərdin, ahın
Bəlkə məktub yazım ünvanına şahənşahın
Dedilər get dua eylə eşidər Allahın
Yoxdu xeyri həzəratın fikirin yazsam əgər

Satirik şairiyəm məndədir ecazı sözün
Qələmim oxdu, deşib çəp baxanın qarə gözün
Yazmışam laxta tüpürcəklər ilə zalım üzün
Yenə könlüm soyumaz lap qəbirin yazsam əgər

14.08.2022

Övladi-vətən elm ilə yüksəlməli daim
Nahəqləri haqqın əlinə etdirə təslim
Oğlum Əli, oğlum Vüqara böylədi lafım
Məzlumun əlindən yapışın, zalimə zalim

26.09.202

Avtomatın tüstüsü şitdən çıxır
Yük yenə çoxdur, səsi fitdən çıxır

İnjenerik, elmimiz ilə düzü
Pislərin heç vaxtı götürməz gözü
Yüz nəfərin əllisi sevsin bizi
Karvana hürmək işi, itdən çıxır

Sahələr ağuşa alıb göy-yeri
Sinusun harmonika atmosferi
Voltu olur gah irəli, gah geri
Oynama* çox vaxt parazitdən çıxır

Qət eləyək bir gün elm zirvəsin
Diqqətinə çatdırıram hər kəsin
İzləyən interneti alqış desin
Qoy deməsin boş meqabitdən çıxır

04.07.2023

Qarışıq təfilədə

Satıbdı hər nə gəldi, vəzifə düşgünləri
Haram yedi kökəldi, vəzifə düşgünləri

Bəzər sözü söz üstə, yalançı vədlər ilə
Realda biəməldi, vəzifə düşgünləri

Xəyanətə sürüklər, düşüncələr təhlükə
Qan imzalanmış əldi, vəzifə düşgünləri

Savad da yox cəhənnəm, ki dərdə əncam ola
Zəfarana məsəldi, vəzifə düşgünləri

Tərəqqi istəyənlər, gərək ki bilsin hər vaxt
Səfalətə təməldi, vəzifə düşgünləri

Bitirmək istəsək də ,bitən deyillər heç vaxt
Bu ölkədə əzəldi, vəzifə düşgünləri

Səfa sənə nə olsun, acıq gəlir adları
Hökumətə gözəldi, vəzifə düşgünləri

16.09.2023

Biz görməyək heç vaxt şəmi pərvanədən ayrı
Öz istədiyindən ola yoxsa nədən ayrı?

Əhdində dəyanətlisə aşiq, belə dünya
Çatmaz gücü salsın onu cananədən ayrı

Xoşbəxt özün hiss eyləsən harda, yaşa orda
Cəhd eylə dolan yaxşısı biganədən ayrı

Saf sevgi məhəbbət yaşayın, xeyli romanlar
Qoy dönsün həqiqətlərə əfsanədən ayrı

Əhdində vəfa sövdələmişdən nə xəyanət
Bülbüllər uçar gülzara viranədən ayrı

Şair nəzərində gözəli, zülfü dararkən
Ətri dolaşır, rəqs eləyir şanədən ayrı

16.09.2023

Bizlər yaşa dolduqcan nədənsə hələ də elə bilirik ki, uşaqlıq illərimizdə gördüyümüz və eşitdiyimiz marağlı şeylər və hadisələr bu yaşda gördüklərimizdən daha təsirlidir daha möhtəşəmdir. Neynəmək olar, insan xüsusiyyətidir. Bu möhtəşəm sandıqlarımdan biri də, uşaqlıq illərində izlədəyim "toz içində çiçək" hind filmidir. Bu film mənə çox təsir etmişdi, bu filmdən aldığım hislər barədə çox şey danışmaq olar . Nəsə keçək əsas mətləbə. Bu kinoda səslənən ən xoş epizod hindli şair Sahir Ludhianvi-nin "tu hindu banega na musalman banega-nə hindli nə

müsəlman olacaqsan" mahnısı idi. Bu mahnının sözləri, əruz vəzninin həcəz bəhrində(məfUlü məfAİlü məfAİlü fəUlün) olduğu üçün ruhumu oxşayırdı. Bu səbəbdən bu yaşımda, bu şeirin bəzi hissələrinə fikirlərimi qataraq Azərbaycan dilinə tərcümə etmək fikrinə gəldim. Şeirin ingilis dilində tərcüməsini tapdım, düzdür çox uğurlu tərcümə alınmamışdır, bəzi yerlərində düzəlişlər edərək, məncə də ərsəyə gətiməyi bacardım.

Nə hindli olarsan, nə müsəlman olacaqsan
Sən ey bəni-adəm, əsas insan olacaqsan

Xəlq olmamış ikən, nə adın nə tamahın yox
Mövcud din inancınla əlaqən pənahın yox
İnsanları bilməkdi bölən, əmri-şahın yox
Bildiklərinin heç biri üçün günahın yox
Yazıq! nə biləydin, belə hardan olacaqsan

Allah dedi, fərqsiz neçə insanı yaratdıq
Biz burda nə hindu nə müsəlmanı yaratdıq
Bir torpağın üstündə həyat, canı yaratdıq
Bizlər fəqət Hindistanı, İranı yaratdıq
Əngəlləri məhv etməyə tufan olacaqsan

Dində sənə ikrah duyuran zahidi tərk et
Adəm əzənin heç dinə yox aidi tərk et
Məbədləri gördükdə Quransız idi tərk et
Yoxdursa "Gita" orda demək məscidi tərk et
Sülhə çağırışlarla canəfşan olacaqsan

Tacirləri dinin sataraq yurdun atıblar
Meydin kəfənindən qazanıb varə çatıblar
Qarətçi və qatilləri köşkündə yatıblar
Bağı-vətənin ruhun ucuz mislə satıblar
Onlarçün ölüm hökmünə elan olacaqsan

Canəfşan- canından keçən
*Gita- hinduların müqəddəs kitabıdır.

24.11.2023

Ağlamalı halımıza gülmə yox!
İynə şükür Allaha var, ilmə yox
İndiki nəslin marağı elmə yox
Biznesi çayxanədi , ya moykadır

Qəndi atıb, çatmaq üçün roltuna
Beynini döndərməlisən altuna
Cahil adamlar, zamanın boltuna
Rezbası korlanmış olan qaykadır

Hardadı bu erkəyin ağsaqqalı?
Yol yürüyər, qızlara bənzər dalı
Gözləri linza, qulağı sırğalı
Vay! bu nə qamətdi, nə stoykadır

Hansı ana doğdu belə sərsəmi
Ev nədi, lazımdı ona zirzəmi
Hər sözü hər söhbəti vor aləmi
Cismi tato, deşmə damar paykadır

Böylə bir erkək nə qanar haq nədir
Ailə, bayraq, ana torpaq nədir
Qəlbi kor hardan görər əxlaq nədir?
Sevdiyi qız şişmə dodaq Aykadır

20.01.2024

DÜŞÜNCƏLƏRİM VƏ TÖVSİYƏLƏRİM

1. Elm-öyrənib öyrətmək üçündür, öyrənib məzara aparmaq üçün yox.(2017)

2. Bütün elmlər Allaha məxsusdur. Bir halda yeri, göyü, canlıları yaradan Allahdırsa və bu yaradılışda riyaziyyat, fizika, kimya, biologiya və.s bütün elmlər iştirak edirsə, biz necə deyə bilərik elmmsiz Allah, Allahsız elm.?(2017)

3. İnsan, o zaman ölümdən qorxmalıdır ki, bu dünyada heç bir şey qoymadan tərk edəcək dünyasını.Yaxşılıq edin, elmlənin elmi hər bir kəslə bölüşün, öyrənin və öyrədin sağlığında rəhmət qazanın. Ölüm anını gözləməyin, hər gün bir xeyir işin qulpundan yapışın, vətənə, xalqa layiqli bir insan olun.(2018)

4. Tutaq bəzi psixoloqlar kimi düşünək. Qəhrəman Mübariz İbrahimov qətl, quldurluq edib deyək. İnsan insanı öldürmək alqışlanası bir şey deyil əlbətdə. Yaxşı, onda cəbhədə olan əsgərlər silahlarını atıb səngərləri tərk etsinlər. Onda bəs necə olacaq? Erməni gəlib evlərimizdə ağalıq edər, günahsızların canına oxuyar. Bir də, Mübariz erməni torpağında erməni öldürməyib, doğma torpağında öldürüb alçağları. Gərək bu dırnaq arası ateist, psixologların babaları, ataları, anaları orda vəhşicəsinə öldürülsəydi onda başa düşməliydilər Mübarizi?. Çox əfsuslar olsun, biz içimizdə olan ermənilər yaxşı tanımamışıq. MÜBARİZ İBRAHİMOV AZƏRBAYCANIN TARİXDƏN SİLİNMƏYƏN ƏBƏDİ QƏHRƏMANIDIR. Bu cümlə hansısa bir erməni öldürdüyünə görə deyil, bu cümlə öz ana torpağımızda ağalıq edən alçağların bu torpağdan rədd olunması naminə mübarizə aparmağına görədir.(18.12.2018)

5. Hər kəs kitab oxuya bilər. Heç kəs müəllimsiz öyrənə bilməz. Müəllim o demək deyil hər kəsdən yaxşı bilir, xeyir o sadəcə hər hansı bir mövzunu daha başa düşülən, sadə dildə öyrətməyə çalışan varlıqdır. Ravil Müəllim Rzayev-in sözü olmasın, internetde saysız hesabsız öyrənmək vasitələri vardır, qoy onda heçkəs məkətəbə getmədən “google”da öyrənsin də. Xüsusən Fizika müəllimləri kitabda yazılan hər bir cümləni şagirdlərə tapmaca kimi açmalıdır. Şərt o deyil şagird

əzbərləməlidir, əksinə oxuduğu mövzunu mahiyyətini anlasa, bu şagirdin şəxsiyyət kimi böyüməsinə böyük bir yol açmış olacaqdır.(17.12.2018)

6. Eşşək nə bilir Zəfəran nədir? Birincisi o zəfəranın nə olduğu bilmək iqtidarında deyil. İkincisi də, guya insan övladına öyrətməsəydilər "zəfəran nədir" o hardan bilərdi ki, bu zəfərandır?.(07.12.2018)

7. Bəzilərinin adlandırdığı möcüzələr, texnik-fiziki biliyə malik olan şəxslər üçün qeyri-adi bir şey deyildir. Təbii ki bu danılmaz faktdır, dünyada hər nə var Allahın yaratdığı möcüzədir. Ancaq hər xırda bir texniki vasitəni Allahın möcüzəsinə bağlamayaq. Yaxşısı buna insanın yaratdığı möcüzə deyək(24.07.2018).

8. Azərbaycanda 90 faiz şəxs müsəlman dinini şiə-süni(və ya hansı təriqət haqlıdır) mübahisəsini etmək üçün öyrənirlər. Yazıqsız etməyin elə şeyə reaksiya vermiyin. Yoxsa biz də suriya, iraq, ve bir çox musəlman ölkələrində baş verən qırğınların səbəbkarları olarıq. Ondansa mübahisələri elmi tərəfdən aparın. Dini mübahisədən faciəli bir mübahisə tanımıram. Nümunə "İŞİD"(05.01.2018).

9. Dərsi effektiv izah etmək metodları:
1. İnformasiyası bol olan bir kitab həm sizdə həmdə öyrənicilərdə olmalıdır. İçində olan dərsləri öyrənciyə necə var oxuyub, lakin öz sözlərinizlə izah edin. Çünki öyrənci, həmin kitabı evdə oxuduqda sizin izahlarınız onların yadına düşsün. Xəyali mövzuları, həqiqi əşyalarla təsvir edin. Sanki əlinizdədir kimi fantastik usulları istifadə edin(gopalogiya olmamaq şərti ilə).
2. Mövzuları löhvə və ya proyektorlarda müqayisəli şəkildə göstərin. Məsələn, cərəyan və gərginliyi ayrı-ayrı izah etdikdən sonra, cərəyan və gərginliyi eyni bir şəkil üzərində göstərin, və fərqlərini izah edin. Bu mənim ən çox müraciət etdiyim metoddur.
3. Bir mövzunu izah etdikdə, bu mövzuya öyrənicilərin necə yanaşmaları üçün hər birinə ayrı-ayrılıqda sual verin, beynindəki anlayışları nümayiş etdirmək üçün, yəni "elektrik cərəyanının vahidi

Amperdir"-oğul! bunu deyəndə nə başa düşürsən? qoy fikirlərini rahat şəkildə izah edə bilsinlər.
4. Öyrəncilərə səmimi davranın, qoy görsünlər ki, heç də savadlı olmaq təkəbbürlü və hərkəsdən üstün olmaq deyil. Və heç də savadlı olmaq, yaxşı insan olmaq demək deyil.(30.11.2019)

10. Əvvəl öyrənməyi öyrən! Ondan sonra istənilən kitabı öyrənə bilərsən.(28.11.2019)

11. Öz dilimizdə Pre-İntermediate seviyyəsində danışırıq, ancaq İngilis dilini “advanced” səviyyəsində hazırlaşırıq (25.11.2019)

12. İşini yaxşı bilməyənlər və yaltağlar, rəhbər müdirlərin verdiyi əmr qarşısında "nə səbəbə və nə üçün" sualını verməyə acizdirlər.(09.11.2019)

13. Şəhid Vüsal Kazımova
Dostum bağışla məni ölümündən əvvəl səndən hal-əhvalını soruşmadım, bilmədim sənin mübarək cismin vətən uğrunda ehsanmış bilməmişəm, son dəfə bağrıma basardım səni, bəlkə bu qədər güc toplaya bilərdim özümdə, 3 il eyni partada hazırlıqda sənlə gözəl günlərimiz oldu. Sən mənə bir daha bütün yaxınlarından möhkəm yapışmağı öyrətdin ölümünlə. Yoxluğuna qurban olum vətən oğlu. Sən Azərbaycanın fəxrisən, övladların başını dik tutub gəzəcəklər narahat olma. Ruhun şad olsun qardaşım, heyif səndən, bu cümlə Tanrıya acığ getməsəydi deyərdim. Qəbrin nurla dolsun vətən oğlu

14. Flan rayon dəhşət şəhid verib demək, heç də doğru cümlə deyil. Erməninin atdığı silah, raket Lənkəran, Naxçıvan deyib "part" eləmir və ya məhz təkcə şəhidi çox olmuş rayonun düşməni deyil. Rayon nə karədir ki, şəhidi çox versin. Elə rayon var ki, orda döyüşən hərbiçilərinin sayı, şəhid olmuş rayonun şəhid və döyüşçülərindən dəfələrlə çoxdur. Canavar kimi də döyüşürlər, indi deyək ki, o rayonda şəhid yoxdur deyə olar qorxaqdırlar ki? Yığışdırın bu boş boğaz söhbətləri, orda rayon əsgərləri şəhid olmur Azərbaycan əsgəri şəhid olur, orda döyüşənlər öz rayonları üçün yox Azərbaycan üçün

vuruşurlar. Sizin-bizim şəhid söhbəti yoxdur, hamımızın qardaşlarıdırlar olar..(06.11.2020)

15. Bilik - oxuduğun və öyrəndiyin məcmudur, bu məlumatın fiziki yaddaşda yox, kitabların rəfdə yox canlı yaddaşda yığılmasıdır. Hafizəsi güclü insanlar çox vaxt bilikli olanlardır. Savad- oxuduğun və öyrəndiyin şeyləri analiz etmə bacarığı, və tətbiq etmədir, nəyisə əzbərləmədən ancaq onu ani müddətdə hardan əldə edə bilməkdir. İstedad- oxuyub və öyrəndiklərinin müqabilində yenilik gətirmək, öyrəndiyin sahə üzrə hər kəsdən fərqli olmaqdır, bəzən kiminsə 10 ildə öyrəndiyini bir il ərzində öyrənib onu innovativ formada gəliştirməkdir. Az zəhmət çəkib, çox bəhər almaq olar bu adamlardan(24.09.2020).

16. İnsanlığın ölçü vahidi - Vicdandır Hər kəsin başı üçün deyil nəfsinə sahib çıxsın, el dərdini çəkməyi üzərinə götürsün, hər kəsi düşünsün, heç kimi narahat etməsin. Çox təəssüf edirəm ki, el vicdanlı insanları dəli adlandırır, çünki vicdanlı olmaq, təkcə öz mənafeyini güdən cahil olmaq deyil. Elə bir kriteriya yoxdur ki , orda vicdan kodeksi özünü əks etdirməsin. Deyərdim, ki Tanrıdan sonra and yerimiz vicdan olmalıdır. Vicdan ilə yanaşılmayan hər şey fırıldağçılıq, haramçılıqdır. Sadəcə məcburiyyətdən hamımız bunun bir qisminə əl atırıq. İslam dinindəki "iman" sözünü vicdan sözünə sinonim gətirmək olar. Sadəcə iman vicdandan da yüksək pillədə dayanır və qüvvətləndirilmiş variantıdır.(15.09.2020)

17. Mənim fikrimcə(özüm də riayət etməklə), avtobusda, maşında hər hansı bir nəqliyyat vasitəsində oturmuş bir şəxsin yolda dayanmış tanımadığı şəxsə(əsasən qadın xeylağına) diqqətlə(oğraş baxışlarla) baxmağı və ya əksinə yolda dayanmış bir şəxsin maşında və hər hansı bir nəqliyyatda oturmuş bir şəxsə(əsasən qadın xeylağı) gözlərini zilləyib baxmağı mədəniyyət baxımından etik deyil. Mən bunu daha çox kənd, qəsəbələrdə kafe, çayxana, avara tin-dalanlarında dayanmış bəzi beyinsiz, səviyyəsiz, tərbiyəsiz kişi xeylağlarına şamil edirəm. Hərdən, ailəsi ilə maşında əyləşmiş kişinin yerinə özünüzü təsəvvür edin, və övrətinizə oğraş baxışlarla zillənmiş gözləri təsəvvür edin, və

azda olsa şəxsiyyət vəsiqənizdə qeyd olunmuş kişi cinsindən olmağınıza bu şeylərin zidd olmasını xatırlayın. İnsan səhvsiz ola bilməz, lakin bu o demək deyil ki, siz hər dəfə eyni səhvi etmək iqtidarındasız. Sadaladıqlarım şeylər çox əfsus olsun, özünü gənclərdə və hətta yetkinlik yaşlarına çatmayan şagirdlərdə biruzə verir. Əziz gənclər! Korlanmış mühitlərdən uzağ olun həmişə, mədəniyyəti, etikanı təbliğ edin, bu yol sizi hər zaman yüksəkliklərə qaldıracaq(07.08.2020)

18. Tamam, bir heyvan sevər kimi, heyvanların kəsilib yeyilməsinə qarşısız, özünüz tərəvəz məhsulları(bunlar canlıdır) yeyirsiz və ət yeyən insana nifrətiniz var, bu əgər belədirsə həyətdə saxladığınız itə nə üçün ət verirsiniz?, nə üçün gedib zebranı, antilopu şirin, pələngin, bəbir və.s vəhşilərin ağızlarından almırsız? Ona qalanda sadaladıqlarım şikarlarını qəddarcasına parçalayıb yeyirlər. Mənim öz fikrimcə heyvanlar insanlardan çoxdur, əgər heyvanlar kəsilib yeyilməsələr və ya heyvan tərəfindən yeyilməsə, öz qismətləri ilə ölsələr dünyanı leş basacaq, fikir versərsinizz az qala hər yer qəbiristanlıqdır, bu heyvanları kəsib ətini özümüz sümüyünü it yeməsə, dünyada leşlərin qoxusundan dayanmaq olmaz və ya torpağ çatdırmaq olmaz. Mən sizlə o zaman razı olaram ki, ət yeməyənlər cansız bir şey yesinlər və ya heyvan sevərlər canlı bir almanı ağacdan qoparıb ömrünə son qoyaraq yeməsinlər.(04.08.2020)

19. Qurbanlıq bayramına qoyunların qətliamı və heyvanlara zülüm deyən dibillərə sözüm odur ki, sizin yediyiniz hansı məmulatdır ki o canlı deyil? Tutaq ət yemirsiz, ot yeyirsiz çörək(buğda, arpa) yeyirsiz, meyvə yeyirsiz, tərəvəz yeyirsiz bunlar məgər canlı bir şeydən alınan qisas deyilki? Məntiqlə fikirləşəndə adi bir meyvədə ağac budağlarında tumurcuq(ana bətnindəki rüşeym kimi) da inkişaf edərək meyvə halına gəlir, və bu meyvə ağacdan oksigen və H_2O yəni hidrogen və digər zülallar alır, bunları alırsa demək meyvə də yaşayır canlıdır. Biz onu dərməsək, ömrünün sonunda ağacdan düşər və ölmüş olar, eləcə də bizə buyrulan heyvanı kəsməsək özü öz qisməti ilə ölər. İnsanın bütün yeyəcəkləri canlı yaradılışdır, nəyi yesək canını almış oluruq, yetər ki, insan ona buyurulmuş azuqələri yesin. Dünyada istənilən canlı istənilən canlıya şikardır, bu Tanrı və Dünya məntiqidir, əks təqdirdə yaradılışın bir mənası olmaz.(01.08.2020)

20. Yaşasın kitablar! Yolda, küçədə, kafedə, çayxanada veyillənməyin, flankəsin maşını evi haqqında danışmayın, yolda sürü halında ailə olan maşının içinə baxmayın utanın , əxlaqlanın, yoldan ötən hər xanımın arxasıycan baxmayın ailənizi düşünün, həyatda artıq insanlıq çəkinizi artırmağa qərar verin, nəsə eləyin bu həyatda. Siz bu həyata yalnəz yeyib içməyə, kef etməyə doğulmamısınz, missiyanız heyvanlardan fərqlənməlidir, nə olur olsun bir peşə tapıb cəmiyyətə xeyir verin, dünya üçün yox özünüzə əməl dəftəri açın və kəmiyyətinizin insanlıq üçün nə qədər olmağınızı vicdan tərəzisində ölçün.(28.05.2020)

21. Kaş səviyyəsiz insanlar öz səviyyələrini cəmiyyət içində gizlədə bilsəydilər, inanın buda bir mədəniyyətdir..(21.05.2020)

22. Elm insanın axırına çıxa bilər və hətta bilir də, yalnız insan elmin axırına ona hətta ikinci həyat verilsə belə çıxa bilməz. "Hər şeyi bilirəm" deyə bir cümlə yalnız yazı formasında mövcuddur, həqiqiliyinə varsaq sadəcə məcazdır. İnsanın biliyi beynində analiz etdiyi dünyada gördükləri, oxuduğu kitablar boydadır.(12.03.2020)

23. Məkan və zamana görə dəyərlərimiz fərqlidir. Eyni insan müxtəlif ölkələrdə, müxtəlif iş yerlərində müxtəlif maaş alır(azdan -çoxa). Mühitimiz dəyişməklə inkşafa doğru addımlaya bilərik yalnız.. Bu uğuru, inkşafı görmək üçün riyaziyyatda deyildiyi kimi, x#0(sıfırdan fərqldir), istisna olduğu üçün beynin məhsulu mütləq sıfırdan böyük olmalıdır.(24.12.2021)

24. Toya pul atmadan təbrik etmək qadağandır.
Bunlar hamısı süni adət ənənələrdir.
Əjdadlarımız buna son qoymayıb, biz gənclər ümid edirəm buna son qoyacaqdır. Kim nə deyir desin, dərin analiz edəndə toy etmək pul yığmaqdır, bu sıraya öz toyumu da əlavə edirəm. Çünki ata-ana nə deyib etmişik. Ancaq mən bunun əleyhinəyəm. Toyuna çağırmısan, borcunu veməlisən mütləq, mənim yazdıqlarım sıfırdan başlayanlaradır. Məgər pandemiyada öz aralarında evlənənlər bizdən az xoşbəxt olurlar ki? Özümü tanıyandan ad günüm üçün, övladlarımın həyata gəlməsi,

kiçik toyları və.s üçün bir məclis qurmamışam və bunu etdiyim üçün də çox xoşbəxtəm. Sürü şəklində yaşamaqdan uzaq olaq, qınaqlar bizim yaşamağımız üçün hədəf deyil. Biz bunun üçün doğulmamışıq, yaradanın yaratdığı “cansız varlıq yaradanlarıyıq”. Missiyamız yaxşılıqla ad etməkdir, vicdanlı və dürüst yaşamaqdır. Kiminsə əlindən tutmağı bacaraq.(24.07.2021)

25. Bir neçə söz ustadlarından siz "şeir"-i hansı formada fikirləşib yazırsınız ki, bu belə effektiv alınır? soruşdum. Araşdırma aparmaq istədim ki, bəlkə bir ümumi orta məxrəcə gələrək şeir üçün formula-düstur tapmış oldum. Əslində şeirin yalnız vəzn formulası və həm qafiyə düsturu olur, fikrini bir daha isbat etmiş oldum, və bir daha buna əmin oldum ki mənalı sözləri şeir ölçüsünə salıb ona ahəng bəxş etmək məhz istedad məsələsidir. Məşədibabadan bir kəlam yadıma düşdü, bədahətən şeir, maşın ustalığı deyil ki, boltun, qaykanın necə bağlandığına baxıb öyrənəsən. İstedad Tanrının əziz bəndəsinə verdiyi ən böyük nemətdir. İstedadlı doğulursan, onu öyrənməklə qazanmaq olmur. Məhz insanları bir-birindən fərqləndirən xüsusiyyətlərdən biri də budur. Bu sözləri istənilən peşəyə aid etmək olar, nə qədər savadlı olursan ol, əgər istedadın yoxdursa o savad səni bir yerə qədər aparacaqdır.(03.05.2021)

26. Araq mədəyə gedər beyinə xumar verər. Narkotika nəfəs və qan vasitəsi ilə beyni xumarlandırar. Musiqi qulaq- səs vasitəsi ilə beyni xumarlandırar. Nəticədə hər üçü eyni məssəbə qulluq edir. Şükür ki, biz musiqi və şeyriyyat dozasından əziyyət çəkirik.(21.04.2021)

27. İnsanı, bir pulu olanda(kalan) tanıyarlar, bir də o insana borca pul verəndə tanımaq olur. Ən çox bütün çirkinliklər 2 -ci nüansda üzə çıxır. Adam özü öz pulunu borc alandan utandığından yerə girib alır, və üstəlik də pis adam olursan. 1 ay adı ilə borc alır, 2 ildən sonra heç yadına da düşmürsən, və yazırsan ki , mənim ehtiyacım var o pula(hətta demirsən borcumu qaytar) , adama bir sifət edir ki, gəl görəsən. Ən yaxşısı, əlində imkanın olmaya-olmaya kiməsə yazığın gəlib borc vermə .. Ən yaxşısı imkanın varsa, imkansıza ianə, yardım et. Borc vermək yardım etmək deyil. Bu bir etibar və inamdır.(12.10.2022)

28. İnsanlar büdcəsindən artıq xəyallar qururlar. Bu böyük problemdir. Pulu da ağıllı xərcləmək lazımdır. Yoxsa ki, "qaqa beş günlük həyatdır kef eləmək lazımdır" iddiası ilə yaşamaq tufeylilik gətirir. Özünü insanlara guya ki, mən hər şeyin bahasını alıram kimi şeylərlə göstərmək acizlikdir. Baxırsan, 500azn maaş alır 40 min azn maşın sümrək məcburiyyətindədir ki, qonşum nə deyəcəkdir. Çünki onun varıdır, mən jiquli sürsəm gülərlər halıma. O, düşüncə sahiblərindən də iki qat qazanmışam, ancaq əlimdə 250(hal hazırda)-400azn dən bahalı telefonum olmayıb, 6000azn-dən baha maşınım olmayıb. Aldığım elmi vəsaitlərin(kitab, proqram, texniki materiallar və.s) qiyməti onlardan bahalıdır. Dəbdəbə, şan-şöhrət üçün yaşamağın qəti əleyhinəyəm və o insanlara nifrət edirəm(kiməsə görə yaşayanlara, kreditə götürdüyü və ödəməyə çətinlik çəkən təfəkkürlərə). Mən texniki təhsilli adam olduğum üçün, məni hər hansı bir düşük dəbdəbəli şeylərlə təəccübləndirmək çətin məsələdir. Mənim üçün heç bir möcüzə Tanrının yaratdığı və fiziki qanunlar kimi marağlı deyil. Başınıza dəysin qonşum nə deyər prinsipinə görə tikdiyiniz evlər, sürdüyünüz maşınlar, gəzdirdiyiniz saat və telefonlar. Siz çox kasıbsınız, hətta rəzalət içindəsiniz .Çünki, mənəviyyatı almağa ağıl valyutanız çatmır.(04.06.2022)

29. Maşın alandan sonra, metro və ictimai nəqliyyatdan istifadə etməyi özümüzə sığışdırmırıq ay kişi. Cibimizdəki puldan artıq baha olan əşyalar alırıq ki, kimsə nə deyər. 8-ci km bazarından alınan geyimi səviyyəsiz şəxslərin əyni üçün ölçürük. Bizdən bu xalqa nə yol göstərən olar, nə də vicdanla xidmət göstərən olar. Ancaq, özümüzü aldığımız əşyalarla kiməsə subut edən cılız varlıqlarıq. Beynimizə təfəkkür toxumunu əkən bağbanın əba-əcdadının evi tikilməsin elə.(17.04.2022)

30. Əksər polislər işə düzələrkən, insanlıq formasını soyunub polis formasını geyinirlər.(08.04.2022)

31. Analar yer üzünün mələyidir, cənnətidir onunla bərabər həm də ədalətsiz varlığıdır. Səbəbi budur ki, ana öz fahişə qızını da sevir, ana öz narkoman oğlunu da sevir, ana kiminsə qızının namusuna toxunduğu

şərəfsiz oğlunu da sevir. Görəsən bu qəlbi necə yaratmısan Uca Tanrı? İnsanları pis, rəzil vəziyyətdə görüb tərk edərlər, ancaq Ana deyilən məxluq əsla tərk etməz/(22.02.2022)

32. Vəfat etmiş bir şəxsə necə can fəda ola bilirki? Canını fəda edirəm deyənlərin heç birini ölü görməmişəm, hələ də sağdırlar.(30.08.2023)

33. Məlum məsələdir ki, internetdə xarici dildə(ingilis, rus, türk və.s) mühəndislik sahəsinə aid "n" qədər məlumatlar yerləşdirilmişdir. Bu asan başa gəlməyib təbii ki, insanlar bildiklərini saytlarda və sosial şəbəkələrdə paylaşaraq insanlığa xidmət etmişlər. Bu insanların bir qismi paylaşaraq mövzuları paylaşaraq saytdan, reklamdan pul qazanıb, çox qismi zərrə qədər mənfəət düşünmədən, paylaşmışlar. Google axtarış sistemində axtardağımız hər mövzuya görə onlara borcluyuq. Bunu biz Azərbaycanlılar da edə bilərik, bunun üçün xarici dildə izlədiyimiz, oxuduğumuz mövzuları azərbaycan dilində qısa kontent çərçivədə açar sözlərlə təsvir edib google platformalarında(sosial şəbəkə və saytlarda, votsapda yox, telegramda yox) paylaşmaq lazımdır. Kitabları ocr text scana çevirib, saytların cloudunda(buludunda) yerləşdirmək lazımdır. Çünki, "google"da axtardığımız bir söz "pdf" və documentlərdə keçirsə mütləq üzə çıxacaqdır.(20.07.2023)

34. Necə öyrənirlər və necə yadımda saxlayım? sualına öz aspektimdən belə cavab verərdim. Oxuduğun, dinlədiyin və ya izlədiyin mövzunun bir sətrlik cümləsinə bircə dəfə "niyə" sualını ver. Hər şeyə şübhəylə yanaşsan hər şeyi öyrənəcəksən.(05.07.2023)

35. Yuxarı çıxmağı bacarmayanlar, nədənsə aşağı çəkməyi bacarırlar.(03.07.2023)

36. Din adı altında bizləri o qədər aldatdılar ki, valideynlərimizi də, baba-nənələrimizi də, əcdadlarımızı da aldatdılar. Ancaq günah onları aldadanda deyil, yenə də özlərindədir. Çünki, açıb bir dəfə marağlanmadılar ki, flankəsi cin vurdu və belində əl izi və ya barmaq izi hansı proses baş verdi ki qaldı?. Bu, zənciri qırmaq biz gənclərin əlindədir. 25 yaşına qədər kənddə qəbiristanlığın yanından və ya

qaranlıq yollardan keçdikdə, bu saat qabağıma cin və ya ruh keçər deyə qorxumdan nə hisslər keçirmişəm bir Allah bilər..Həqiqətən məlumatım artdıqcan girib qəbrə ölülərlə birgə yatmağım gəlir.(29.06.2023)

37. Qurban bayramı mesajı
Bağışlayın qoyunlar!, bu gün sizi əvvəlki günlərə nisbətən daha çox qətlə yetirərik. Neyniyək?, biz də vəhşi təbiətin mədəniyyətləşməyə çalışan məxluqlarıyıq. Ümid edirəm, nə zamansa sizin kimi otlar, bitkilərdən yeyib sizi qətlə yetirmərik. Düşünəndə ki, otlar da, bitkilər də canlıdır və biz cansız bir şeylər yeyib yaşaya bilmərik, o zaman daha da beynimiz qarışır, cavabsız sualların içində ölüb-gedirik. Və qəbullanmalıyıq ki, bizi heyvandan ayıran tək bir şey, şüurdur. Heyvanlar, heyvanı əzab verə-verə hardan gəldi yeyirlər, biz onu mədəni formada bıçaqı boğazına qoyub şah damarından qanı fışqırdarak kəsirik ki, heyvan tez ölsün, murdar orqanları atıb yaxşı yerindən yeyirik. Bu bayramın haqqı bütün dünya müsəlman ölkələri üçündür, bu bayramın şotuna ateist, deist, xristian və.s digər əqidəli şəxslər tətildə olurlar(hələ etiraz edib, işə gedəni görməmişəm). Odur ki, hər bir kəsin bayramı mübarək olsun. Bayramlar daha da çox olsun ki, hər kəs öz sevdikləri ilə və sevdiyi istirahətləri ilə olsunlar.

38. Müasir müsəlmanlar, artıq anlayırlar ki Allahın yaratdığına qarşı çıxmayıb şükür etmək özü axmağlıqdır. Bəs nə oldu?, burunları uzun olur kəsdirdilər, bəs nə oldu? çəp gözü əməliyyat etdirdilər, bəs nə oldu? əyri əl ayağlarını düz etdilər. Bəs niyə olanla qane olmayıb, "əlhəmdüllah" demirlər?. Qalardılar da, yuxarıda sadaladığım raxit və əlilikəri ilə. Qane olardılar da, Allahın bəxş etdiyi burun ilə. İndi mən də sual edirəm, bəs yaradılışa qarşı çıxmaq , üsyan etmək kafirlik idi nə oldu?. Razılaşırsız, dünyanı elm qurtaracaq ??. Klon insanlar doğulacaq, yeni insan, cinsi yaranacaq. Bunları elm mütləq həyata keçirəcək. Bəs, Allah nə qədər qismət edər, o qədər yaşayaram deyirsiniz. Nə üçün, ürəyinizi , böyrəyinizi, cigərinizi dəyişdirmək üçün pulunuz olanda, qane olmadınız xəstəliyiniz ilə. Mister və Miss-lər, Allah bizə ağıl verdi, dünyanı gözəlləşdirmək , faydalı olmaq bizim əlimizdədir. Bu dünya biz canlılarındır, burda şərəfsizlik, namussuzluq və əxlaqsızlıqdan başqa hər şey edə bilərik.(21.05.2023)

39. Hər gün insanda update getməsə, o Pentium-4 kimi işləyəcəkdir. Normal insanlarda hər gün məlumat yenilənməsi getməlidir, getməsə cahillik sindromuna tutulma ehtimalı çoxdur. Mənəviyyatımız maddiyyatımızdan daha çox zənginləşməlidir.(30.04.2023)

40. İnsanlar mədəni heyvanlardır(29.04.2023)

41. Beyinlərə mədəniyyət gülləsini çaxmaq vaxtıdır. İnsanlara zornan mədəniyyətli olmağı öyrətmək lazımdır. Başqa seçim qoymaq olmaz. Ölkə beyinsizlər əlindən vedrələrdən daşmış zibilliyə bənzəyir. Bizə, məktəbdə oxumağı yalnız, ali məktəbə daxil olmaq üçün öyrətdikləri yerdə böyük yanlışlıqlara yol verən böyüklər. Bütün günahlar sizdədir.(26.04.2023)

42. Əməliyyat uğurlu keçəndə Allaha təşəkkür edirlər , uğursuz keçəndə həkimi söyürlər.(19.04.2023)

43. Ölümdən sonra, həyat yoxdur deyən heç bir din yoxdur. Və elə bir din yoxdur ki, orda Tanrı anlayışı olmasın. Sadəcə konstitusiya fərqlidir.(13.04.2023)

44. Balaca uşaq belə suallar verəndə ki, “Səma niyə mavidir?”, “Karandaş nə üçün yazır?”, “Külək necə olur ki, əsir?” və ya “Televizor necə işləyir?”, o, ilk dəfə özünün fizikaya olan marağını büruzə verir, halbuki hələ belə bir sözü bilmir. Yaşlı adam maşında gedərkən, kompüter qarşısında işləyərkən, lampanı burub taxarkən, soyuducudan ərzaq götürərkən fizikanın ona bəxş etdiyi imkandan istifadə edir və bəzən bu barədə heç düşünmür də.(27.02.2023)

45. Azərbaycanlıyıq, kişi mental dəyərlərinə sahib kişilərik(əksərimiz).. Xətrimizə dəyənə qol gücümüzü, və söyüşümüzü göstərmək adətimizdir. Yəni bununla kiməsə, yerini göstərmək fikrində yaşayırıq. Cənablar, biz ömrümüzü xətrimizə dəyənlərlə məşğul olmaqla keçirsək ya zindanlarda yaşayarıq, ya da psixoloji travma bizdən əl çəkməz. Bu dünyada bir dəfə yaşayırıq. Düşünürəm, xətrimizə dəyənlərə ən gözəl

şillə cavabı, uğurumuzu göstərməkdir. Çalışaq harda oluruqsa olaq, orda ən böyük uğur sahibi(həqiqi) olaq. Bizə paxıl deyənləri, bizi gözü götürməyənləri qazandığımız uğurla başa salaq. Uğur qazandıqdan sonra isə, öyrəndiyimiz bütün sirləri zamanında başqaları ilə paylaşmağa çalışaq. Qoy, bilik, və elm paylaşmaqla daha böyük nöqtəyə çatsın.(13.01.2023)

46. İnsanların xarici görünüşünü məsxərəyə salan cütlüklərin eybəcər, əlil övladları olan kimi, nədənsə o saat daxili gözəlliyə səyahətləri yadlarına düşür. Ay nə bilim əsas insanın ürəyidir sözləri kimi bəhanələr.(2023)

47. Böyük adamlar tərbiyəni tərbiyəsizlərdən öyrənir.(2023)

48. Meyxanaçılar Əliağa Vahidin, Mirzə Ələkbər Sabirin, Seyyid Əzimin, Nəsiminin şeirlərini də meyxana ritimi ilə desələr də, yenə mənəviyyatsız sənətin tör töküntüləri adlandırılacaqlar. Bəyənməyənlərin əksəriyyəti 99% çıkıdı-çıkıdı ritminə görə qızıldan şahana sözləri görməzdən gəlirlər.

Bayağı içində gizlənmiş klassik söz sənəti!, çox əfsus sən mənəviyyatsızların dilindən səslənirsən. Əslində sən şeirin özüsən, baxır hansı şəxsin təfəkküründə hasil olursan.(04.12.2023)